# YENİ AZƏRBAYCAN

9 iyul 2025-ci il, çərşənbə
№ 116 (6943)
Qiyməti 60 qəpik

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.




Milli azadlıqdan şirin nemət yoxdur!



## 106 illik diplomatik xidmət...

Bax səh. 3



## ECO: Sıx inteqrasiya üçün daha nə etmək lazımdır?

Bax səh. 2

## Prezident İlham Əliyev Donald Trampa başsağlığı verdi

Hörmətli cənab Prezident,

Texas ştatında baş vermiş güclü daşqınlar nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün Amerika xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, xəsarət alanlara şəfa diləyirəm.

*İlham Əliyev*
*Azərbaycan Respublikasının Prezidenti*
*Bakı şəhəri, 8 iyul 2025-ci il*



## 17 ildə 170 milyard kubmetr qaz

Bax səh. 4

## Enerji idxalında yeni perspektiv...

Bax səh. 4




## Milli Məclisin iclasında... 15 məsələ müzakirə edilib

Bax səh. 5

## Süni intellekt strategiyamız...

Bax səh. 5

## “Medianın inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu” mövzusunda konfrans keçirilib

Bax səh. 5

## Xocalı qatili Ohanyan həbs edilir? - deputat toxunulmazlığı ləğv olundu...

Bax səh. 6

## Növbəti görüş baş tutacaq?

### Vaşinqton - Tehran danışıqları bərpa olarsa...

Bax səh. 6



## Yelisey Sarayının kolonializm siyasətinin daha bir ünvanı - Madaqaskar

Bax səh. 7



## Fransaya daha bir zərbə...

Bax səh. 6

# ECO: Sıx inteqrasiya üçün daha nə etmək lazımdır?

**İqtisadi Əməkdaşlıq Təşkilatına (ECO- İƏT) üzv olan ökələr 8 milyon kv.km-dən çox ərazini əhatə edir və bu coğrafiyada, ümumilikdə, 550 milyon əhali (dünya əhalisinin 6 faizdən çoxu) yaşayır. Bu o deməkdir ki, təşkilat həm coğrafiya, həm də istehlakçı baxımından kifayət qədər ciddi potensiala malikdir. Eyni zamanda, quruma üzv ölkələr Avrasiyada mühüm nəqliyyat-logistika imkanları baxımından da diqqət çəkir. Region, həmçinin əmək ehtiyatları, karbohidrogen resursları və nadir metal ehtiyatları ilə kifayət qədər zəngindir.**
**Ancaq praktiki müstəvidə bu zəngin potensialdan tam miqyası ilə istifadə olunmur. Quruma üzv dövlətlərin bir çoxu iqtisadi, siyasi problemlərlə üz-üzədir, onlar arasında inteqrasiya aşağı səviyyədədir. Bütövlükdə, indiyədək üzv dövlətlər arasında arzu edilən adekvat əlaqələndirməni təmin etmək mümkün olmayıb. Bu isə təbii ki, son nəticədə qurumun funksionallığına, ona olan inama mənfi təsir göstərir. Bəs problemlər nədən qaynaqlanır və ECO-nu üzv ölkələr arasında dərin inam bəslənən daha funksional quruma çevirmək üçün hansı tədbirlər görülməlidir? Azad Xankəndinin bu günlərdə uğurla ev sahibliyi etdiyi İƏT-ə üzv ölkələrin liderlərinin 17-ci Zirvə görüşündə uğurlarla yanaşı, həlli vacib olan bir sıra məsələlərə də diqqət çəkilib.**

## ECO regionu üçün çətin dönəm




ECO-nun Xankəndidə keçirilən Zirvə görüşü bütövlükdə, beynəlxalq birliyin müəyyən çətinliklər və transformasiyalarla üz-üzə qaldığı bir vaxtda baş tutub. Hazırda dünya çətin bir dönəmdən keçir. Qlobal miqyasda yeni nizamın formalaşması müşahidə edilir və təəssüf ki, bu proses özündə güc mərkəzlərinin təsir dairələrini genişləndirmək hədəfini ehtiva edir. Çoxlu sayda ölkə amansız təhdidlərə və təsirlərə məruz qalır. Dünya getdikcə daha çox dərəcədə beynəlxalq hüquq normaları ilə deyil, ikili standartlarla idarə olunur. İş o yerə çatıb ki, hətta BMT də münaqişələrə təsir etmək imkanlarını sürətlə itirməkdədir.

Xankəndi zirvəsində bildirildiyi kimi, dünyanın hazırkı mənzərəsindən ECO coğrafiyası daha çox dərəcədə təsirlənir. İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə görüşünün sədri, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin çıxışında vurğuladığı kimi, münaqişə və mübahisələrin əksər hissəsi təşkilatın ərazisində baş verməkdədir. ECO-nun üzvü olan Əfqanıstan vətəndaş müharibəsindən çıxan ölkədir. Bir qədər bundan əvvəl Pakistanla Hindistan arasında qısamüddətli münaqişə yaşandı. İran 12 günlük müharibədə ağır zərbələr alıb. Türkiyə sərhəd bölgələrində davamı olaraq antiterror tədbirləri keçirmək məcburiyyətində qalır. “Son aylarda Cənubi Asiya və Orta Şərqdə baş verən hadisələr hamımızda böyük narahatlıq doğurdu. Beynəlxalq hüquq və qlobal təhlükəsizlik təsisatlarının sarsılması dialoq və əməkdaşlıq imkanlarını daraldır, güc və zorakılığa yol açır. Xüsusən də təşkilatımızın üzvü olan İran İslam Respublikasına qarşı hərbi əməliyyatlar öz növbəsində bütün regionu müharibəyə sürükləmək və böyükmiqyaslı ətraf mühit fəlakətinin baş verməsi təhlükəsini yaratdı”, - deyə Şavkat Mirziyoyev qeyd edib.

Bu kontekstdə İran ilə İsrail arasında 12 günlük dağıdıcı müharibədən sonra əldə olunmuş atəşkəs razılaşması təqdirəlayiqdir Çox doğru olaraq bu qərar regionda gərginliyin azaldılması və sabitliyin bərpası istiqamətində atılan mühüm addım hesab olunur. Hazırda kütləvi qırğın silahlarının yayılmaması beynəlxalq təhlükəsizliyin ən təxirəsalınmaz məsələlərindən biri qismində çıxış edir. Bu reallıq nəzərə alınmaqla Xankəndi zirvəsində bir daha nüvə silahından azad zonaların coğrafiyasını genişləndirmək üçün qlobal ictimaiyyətə çağırış edilib. Heç bir halda ölkələrin bir-birini nüvə silahı ilə təhdid etməsinə yol vermək olmaz. Nüvə texnologiyalarından yalnız dinc məqsədlər üçün istifadə olunmalıdır.

İsrail-Fəlstin münaqişəsi də İƏT regionunda böyük narahatlıqla izlənilir. Hazırda Qəzzada bir insanlıq faciəsi yaşanır, indiyədək on minlərlə insan həyatını itirib, mülki əhali humanitar fəlakətlə üzləşib. Bu münaqişə həllini tapmadan Orta Şərqdə dayanıqlı sülh və sabitlik təmin edilməyəcək. Beynəlxalq ictimaiyyət Qəzza zolağında hərbi əməliyyatların dayandırılmasına, aclıq və qeyri-insani şəraitdən əziyyət çəkənlərə humanitar yardımın göstərilməsində bütün maneələrin aradan qaldırılmasına nail olmalıdır.

## Regionun orta və uzunmüddətli inkişaf hədəfləri müəyyənləşdirilməlidir



Əlbəttə, bütün məsələlərin təməlində iqtisadi güc amili dayanır. Buna görə də üzv ölkələr arasında iqtisadi əməkdaşlığın gücləndirilməsi strateji önəm daşıyır. İƏT-in əsas məqsədi də məhz bundan ibarətdir. Lakin hazırkı inteqrasiya səviyyəsi bu məqsədə çatılmasının hələ kifayət qədər uzaq olduğunu deməyə əsas verir. Etiraf olunmalıdır ki, hazırda İƏT ölkələrinin qlobal iqtisadiyyatda payı onların potensialına adekvat deyil. 2024-cü ildə ECO dövlətləri arasında ticarət dövriyyəsi cəmi 95 milyard dollar səviyyəsində olub. Bu göstərici üzv ölkələrin ümumi ticarət dövriyyəsinin cəmi 10 faizini təşkil edir.

Xankəndi Zirvə görüşündə vurğulandığı kimi, ilk növbədə İƏT-in orta və uzunmüddətli inkişaf prioritetlərini aydın şəkildə müəyyənləşdirmək lazımdır. Bunun üçün Azərbaycanın ev sahibliyi etdiyi tədbirdə məyyən nəticələr əldə olunub, o cümlədən mühüm əhəmiyyətə malik “İqtisadi əməkdaşlığın strateji məqsədləri 2035” adlı konseptual sənəd qəbul edilib. Hazırda ECO ökələri arasında inteqrasiyanın arzuedilən səviyyədə olmaması ilk növbədə zəruri institusional strukturların formalaşmaması və bəzi bürokratik maneələrlə bağlıdır. Buna görə də vaxtı çatmış islahatları hədəfləyən müzakirələrin aparılması və hüquqi bazanın möhkəmləndirilməsi zəruridir. Mümkün əməkdaşlıq istiqamətləri qismində ticarət, sərmayə, nəqliyyat, enerji, sənaye, kənd təsərrüfatı, ekologiya, turizm və təhsil kimi ənənəvi sahələrlə yanaşı, innovasiya, süni intellekt və rəqəmsal texnologiyalar üzrə əlaqələrin gücləndirilməsinə xüsusi diqqət yetirilməlidir. Əmtəə və xidmətlərdə ticarətin asanlaşdırılması, texniki və qeyri-tarif maneələrin tədricən aradan qaldırılması və elektron ticarətin inkişafı xüsusilə vacibdir.

Qarşılıqlı ticarətin həcmini artırmaq məqsədilə Xankəndi Zirvə görüşündə bir sıra təkliflər səsləndirilib. Bunlardan aşağıdakıları misal göstərmək mümkündür:

-Üzv dövlətlər arasında ticarətin asanlaşdırılması sazişinin imzalanması,

-Kənd təsərrüfatı, ticarət və əmtəənin məhdudiyyətsiz təchizatı üzrə məlumatların sürətli mübadiləsi üçün “yaşıl dəhlizlər” sisteminin yaradılması,

-İnvestisiya əməkdaşlığını yeni səviyyəyə qaldırmaq üçün “ECO invest” uzunmüddətli proqramının qəbul edilməsi və üzv ölkələrdə sərmayə mühitinin daha şəffaf və cəlbedici olmasınının təmin edilməsi,

-Özəl investorların, bankların və beynəlxalq maliyyə təsisatlarının İƏT coğrafiyasında perspektivli layihələrə cəlb olunması,

-ECO regionu üzrə azad ticarət zonasının yaradılması.

## Nəqliyyat-logistika sektoru prioritet istiqamətlərdən biri kimi

İƏT-ə üzv ölkələr arasında inteqrasiyanın dərinləşməsində nəqliyyat-logistika sektoru prioritet istiqamətlərdən biri ola bilər. Üzv dövlətlərin coğrafi yerləşməsi bu sahədə sıx inteqrasiya üçün geniş imkanlar açır. Son geosiyasi hadisələr təchizat zəncirlərinin pozulması risklərini bütün ciddiliyi ilə gündəmə gətirib. Hazırda izlənilən geosiyasi kataklizmlər, o cümlədən Rusiyadan keçən Şimal, İrandan keçən Cənub marşrutlarının faktiki olaraq funksionallığını itirməsi fonunda alternativ nəqliyyat bağlantılarına ehtiyac heç vaxt olmadığı qədər artıb. Artan zərurət fonunda İƏT ölkələri təchizat zəncirində özlərinin nəqliyyat-logistika imkanlarını təqdim edə bilərlər. Burada o amil nəzərə alınmalıdır ki, bəzi üzv dövlətlərin açıq dənizə çıxışları yoxdur və bu məhdudiyyəti ancaq digər tərəfdaş ölkələr üzərindən aradan qaldırmaq mümkündür. Vurğulandığı kimi, Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu layihəsinin ötən il işə salınması mühüm hadisə idi. Gələcəkdə bu dəmir yolu xətti Transəfqan dəhlizi ilə birləşəcək və böyük regionda tranzit şəbəkələrini səmərəli şəkildə bir araya gətirəcək. Yeni şəraitdə Azərbaycanın əsas həlqəni təşkil etdiyi Transxəzər (Orta Dəhliz) marşrutunun önəmi də əhəmiyyətli dərəcədə artıb. Azərbaycan Orta Dəhlizin yeni qollarının yaradılmasına da güclü siyasi iradə sərgiləyir. Yük həcmlərinin əhəmiyyətli dərəcədə artması perspektivləri nəzərə alınmaqla rəqəmsal nəqliyyat və gömrük ofisinin yaradılması təşəbbüsünün həyata keçirilməsi labüddür. Yalnız bu yolla nəqliyyat və logistika sektorlarında rəqəmsallaşmanı sistemli şəkildə təşkil etmək mümkündür.

Digər imkanlar da mövcuddur. O cümlədən yeni aviareyslərin açılması, hava nəqliyyatı şirkətləri arasında əməkdaşlığın innovativ şəkildə həyata keçirilməsi, marketinq strategiyalarının gücləndirilməsi turizm və aviasiya sektorlarının inkişafına böyük təkan verə bilər. “Mən diqqətinizi digər bir mühüm məsələyə cəlb etmək istəyirəm. Əsas məsələ ondan ibarətdir ki, bizim hökumətlər qlobal iqlim gündəliyində öz səylərini əlaqələndirməli və birləşdirməlidirlər. Biz Bakıda COP29 qlobal iqlim sammitinin uğurla keçirilməsindən sonra əldə edilmiş razılaşmaların və öhdəliklərin tam şəkildə icrasını qəti şəkildə dəstəkləyirik. Biz, eyni zamanda, təşkilatımızın məhz quraq yerlərdə ağacların əkilməsinə, o cümlədən istirahət zonalarının yaradılmasına yönəlmiş “Yaşıl təşəbbüsü”nü dəstəkləyirik”, - deyə Şavkat Mirziyoyev vurğulayıb.

*Mübariz FEYİZLİ*




# 106 illik diplomatik xidmət...

## Bu gün diplomatik xidmət orqanlarının peşə bayramıdır

**Bu gün Azərbaycanın diplomatik xidmət orqanlarının yaradılmasından 106 il ötür. Müsəlman Şərqində ilk demokratik respublikanın yaradılmasında və müasir dövrdə müstəqil Azərbaycan dövlətinin qurulması prosesində milli diplomatiyanın rolunu nəzərə alaraq və 1919-cu il iyul ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin Katibliyinə dair müvəqqəti təlimatın qəbul edildiyini əsas tutaraq 2007-ci il avqustun 24-də Prezident İlham Əliyev hər il iyulun 9-nun Azərbaycan diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü kimi qeyd edilməsi haqqında Sərəncam imzalayıb.**

### Cümhuriyyət dövründə 16 xarici dövlətin nümayəndələri Bakıda...

Qeyd edək ki, diplomatiya gününün müəyyən olunması ilə bağlı bir neçə təklif nəzərdən keçirilib. Lakin nəticədə qərara alınıb ki, arxivlərdən Azərbaycan Xalq Cümhuriyyətinin Xarici İşlər Nazirliyinə aid tapılmış ilk rəsmi sənəd 1919-cu il 9 iyul tarixli Azərbaycan Xalq Cümhuriyyəti Xarici İşlər Nazirliyinin Katibliyinə dair müvəqqəti təlimat olduğundan məhz bu tarix diplomatiya gününün əsasını təşkil etsin. Azərbaycan diplomatiyası ilk addımlarını atdığı dövrdə - 1919-cu ildə Bakıda 16 xarici dövlətin, o cümlədən ABŞ, Böyük Britaniya, Fransa, İtaliya, İsveç, İsveçrə, Belçika, İran, Polşa və Ukraynanın diplomatik nümayəndəlikləri fəaliyyət göstərib. 1920-ci il yanvarın 11-də Paris Sülh Konfransında Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyi de-fakto tanınandan sonra Azərbaycan hökuməti tərəfindən Qərbi Avropa və Amerikada ölkənin diplomatik nümayəndəliklərinin təsis edilməsinə dair qanun layihəsi hazırlanıb.

Bolşevik işğalından sonra Xalq Cümhuriyyəti dövründə bu sahədə görülən işlər dayandırılıb. 1922-ci il dekabrın 30-da Moskvada Birinci Ümumittifaq Sovetlər qurultayında SSRİ-nin yaradılması haqqında müqavilə imzalandı. Bununla da Azərbaycanın müstəqil xarici siyasət fəaliyyətinə tamamilə son verilib. 1923-cü il oktyabrın 8-də Azərbaycan SSR Xalq Komissarları Sovetinin 529 saylı əmrinin birinci paraqrafı ilə Türkiyə və İran istisna olmaqla, Azərbaycanda fəaliyyət göstərən bütün diplomatik nümayəndəliklər ləğv edildi. Yalnız İkinci Dünya müharibəsinin sonlarına yaxın - 1944-cü ildə sovet hakimiyyəti özünün geniş strateji maraqlarını əsas götürərək digər respublikalarla yanaşı, Azərbaycan SSR Xalq Xarici İşlər Komissarlığını da yaratdı. Lakin bu orqan uzun illər boyu yalnız formal mövcud oldu.






### Heydər Əliyev ölkənin xarici siyasət kursunu müəyyənləşdirib

1991-ci il oktyabrın 18-də Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra isə bir-birinin ardınca dünya dövlətləri və BMT tərəfindən tanındı. 1993-cü ildə böyük dövlət xadimi Heydər Əliyev Azərbaycan xalqının təkidi ilə hakimiyyətə qayıtdıqdan sonra milli dövlətçiliyin qurulması prosesi Xarici İşlər Nazirliyi sistemini də əhatə edib. Ulu Öndər Azərbaycanın xarici siyasətinin strateji ana xəttinin konturlarını cızıb. Azərbaycanın müstəqilliyinin itirilməsi və Xalq Cümhuriyyətinin acı aqibətinin yenidən yaşanıla biləcəyi bir şəraitdə ölkəmizin yaxın və uzaq tarixi keçmişi, üzləşdiyi geosiyasi reallığı dərindən təhlil edilərək Heydər Əliyev tərəfindən formalaşdırılan xarici siyasət strategiyası, ilk növbədə, respublikamızın milli maraqlarının aydın və dəqiq şəkildə müəyyən edilməsini, bərabərhüquqlu, daxili işlərə qarışmamaq və qarşılıqlı faydalı əməkdaşlıq prinsipləri əsasında qonşu dövlətlər və dünya birliyi ilə mehriban münasibətlərin qurulmasını, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün beynəlxalq müstəviyə çıxarılmasını, işğalın nəticələrini aradan qaldırmaq üçün Ermənistana qarşı beynəlxalq siyasi təzyiqin gücləndirilməsini və son hədəf olaraq Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığının təmin olunmasını özündə ehtiva edib.

Heydər Əliyevin müəyyənləşdirdiyi xarici siyasət kursu hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətimiz milli maraqlara və mövqelərimizin dünya səviyyəsində müdafiə edilməsinə əsaslanan müstəqil, çoxşaxəli, balanslı və fəal xarici siyasət yürüdür. Hazırda Azərbaycan böyük layihələrin təşəbbüskarı və iştirakçısı qismində regional əməkdaşlığı inkişaf etdirən və beynəlxalq nüfuza malik bir dövlətdir. Etibarlı tərəfdaş kimi qəbul edilən Azərbaycanın xarici siyasət uğurları qonşu ölkələrlə və dünyanın digər dövlətləri ilə balanslaşdırılmış münasibətlərin qurulması, qarşılıqlı maraqlardan irəli gələn bərabər dialoq və əməkdaşlığın həyata keçirilməsinə əsaslanır. Ölkəmizin xarici siyasət sahəsində qazandığı uğurlar 2020-ci ildə Vətən müharibəsi zamanı özünü göstərdi. Belə ki, məhz yürüdülən uğurlu və məqsədyönlü xarici siyasətin nəticəsi idi ki, İkinci Qarabağ müharibəsi zamanı Azərbaycanın haqlı mübarizəsi beynəlxalq ictimaiyyət tərəfindən dəstəkləndi.

### Xarici siyasətimizin uğurları...

Ölkəmizin beynəlxalq və regional problemlərin həllində rolu və nüfuzu getdikcə artır. 2012-2013-cü illərdə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzvlüyünün ardınca ölkəmizin 2017-2019-cu illər üçün 176 səs lehinə olmaqla BMT-nin İqtisadi və Sosial Şurasına üzv seçilməsi, 2019-cu ildən etibarən isə dünyanın 120 ölkəsini birləşdirən Qoşulmama Hərəkatına sədrliyi öz üzərinə götürməsi ölkəmizin xarici siyasətinin nailiyyətlərindəndir. Bütün bunların uğurlu davamı olaraq 2024-cü ilin noyabrında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a Azərbaycanın ev sahibliyi etməsini göstərmək olar. Regionun lider dövləti olan Azərbaycan bu gün dünya miqyasında da öz sözünü deyən ölkələrdən biridir. Bundan əlavə, Azərbaycan Türk Dövlətləri Təşkilatı, MDB, Avropa İttifaqı, NATO, Şanxay Əməkdaşlıq Təşkilatı, Ərəb Dövlətləri Liqası, Afrika İttifaqı və digər beynəlxalq qurumlarla sıx münasibətlərə malikdir və onların işində fəal rol oynayır.

Qeyd edək ki, hər il diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günü ərəfəsində müxtəlif tədbir də keçirilir. Bu dəfə isə ADA Universitetində “Azərbaycanın xarici siyasəti suverenliyin bərpasından sonra: prioritetlər və çağırışlar” mövzusunda diplomatik xidmət orqanlarının rəhbərlərinin IX müşavirəsi baş tutub. Müşavirənin iyulun 7-də keçirilən açılış mərasimində ADA Universitetinin rektoru Hafiz Paşayev, xarici işlər naziri Ceyhun Bayramov, Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev çıxış ediblər. Çıxışlar zamanı Azərbaycanın xarici siyasətinin bir sıra istiqamətləri, o cümlədən iqtisadiyyat, təhlükəsizlik, enerji, mədəniyyət, kommunikasiya sahələri üzrə görülmüş işlər və gələcək planlardan bəhs olunub, ölkəmizin yerləşdiyi bölgədə mövcud vəziyyət, habelə beynəlxalq təhlükəsizlik vəziyyəti təhlil edilib. İkitərəfli və çoxtərəfli əməkdaşlıq gündəliyinin genişləndirilməsi, regional və beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələlərindən bəhs olunan açılış mərasimində xarici siyasətimizin yeni istiqamətləri, ölkəmizin vasitəçilik, iqlim diplomatiyası səyləri və bu istiqamətdə gələcək planlar barədə müzakirələr aparılıb.

Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət, işğaldan azad olunmuş ərazilərdə aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, habelə Azərbaycan-Ermənistan normallaşma prosesindən bəhs edilib, sülh prosesini hədələyən mövcud çağırışlar, o cümlədən ölkəmizə qarşı Ermənistan konstitusiyasında əks olunmuş ərazi iddialarının aradan qaldırılmasının vacibliyi diqqətə çatdırılıb.




### IX müşavirə və panel müzakirələri hansı məsələlərə həsr olunub?

İyulun 9-dək davam edəcək müşavirə çərçivəsində ikitərəfli və çoxtərəfli diplomatiya, iqtisadi, iqlim, enerji diplomatiyası, bağlantılar, məhkəmə prosesləri, humanitar və mədəniyyət diplomatiyası, beynəlxalq inkişafa yardım, xarici siyasətin kommunikasiyası, parlament diplomatiyası, beynəlxalq müqavilələr, diaspor fəaliyyəti, habelə diplomatik xidmət orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılmasına həsr olunan panel sessiyalar təşkil edilib. Belə ki, iyulun 7-də “Dəyişən dünya düzənində xarici siyasət və çoxtərəfli diplomatiya” mövzusuna həsr olunan ilk panel müzakirəsi xarici işlər nazirinin müavinləri Araz Əzimov və Yalçın Rəfiyevin əsas natiqlər qismində iştirakı ilə keçirilib. Panel çərçivəsində postmünaqişə dövrünün reallıqlarının Azərbaycan xarici siyasətində yaratdığı prioritetlər, normallaşma prosesinin vəziyyəti və mövcud çağırışlar, regional və beynəlxalq təhdidlərin fonunda ölkəmizə təsir edə biləcək təhlükəsizlik məsələləri, çoxtərəfli platformalarda fəaliyyət çərçivəsinə mövcud çağırış və imkanlar təhlil edilib.

“Dayanıqlı inkişaf perspektivləri: iqtisadi və iqlim diplomatiyası, enerji təhlükəsizliyi və bağlantılar” mövzusunda keçirilən ikinci panel müzakirəsində isə iqtisadiyyat naziri Mikayıl Cabbarov, rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev və Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi, COP29-un prezidenti Muxtar Babayev tədbirdə əsas natiq qismində iştirak ediblər. Panel çərçivəsində ticarət və investisiya perspektivləri, bu sahələrdə əməkdaşlığın şaxələndirilməsi, geoiqtisadi gərginliklərin iqtisadi diplomatiyamıza təsirləri, ölkəmizdən keçən nəqliyyat dəhlizləri üzrə mövcud təşəbbüslərin irəlilədilməsi, Azərbaycanın beynəlxalq iqlim diplomatiyasında bundan sonrakı fəal iştirakını şərtləndirən amillər və s. mövzular müzakirə olunub.

Üçüncü panel müzakirəsi isə “Məhkəmə prosesləri üzrə strategiyalar” mövzusuna həsr olunub. Tədbirdə xarici işlər nazirinin müavini Elnur Məmmədov və Baş prokurorun birinci müavini Elçin Məmmədov əsas natiqlər qismində çıxış ediblər. Panel çərçivəsində Azərbaycan ərazilərinin işğalı və keçmiş Ermənistan-Azərbaycan münaqişəsi zamanı Ermənistan tərəfindən törədilmiş cinayətlərlə bağlı beynəlxalq məhkəmə prosesləri müzakirə olunub. Həmçinin Ermənistanın hərbi təcavüzü nəticəsində baş vermiş çoxsaylı hüquq pozuntularına görə məsuliyyət daşıyan şəxslərlə bağlı aparılan məhkəmə işləri barədə məlumat verilib.

Diplomatik xidmət orqanlarının rəhbərlərinin IX müşavirəsinin “Həmrəyliyin təşviqi: humanitar və mədəniyyət diplomatiyası, beynəlxalq inkişafa yardım” mövzusunda dördüncü paneli mədəniyyət nazirinin müavini Fərid Cəfərov və Azərbaycan Beynəlxalq İnkişaf Agentliyinin rəisi Elməddin Mehdiyevin əsas natiqlər qismində iştirakı ilə keçirilib. Panel müzakirəsi çərçivəsində ölkəmizin mədəniyyətinin təşviqi sahəsində birgə fəaliyyət, mədəniyyət diplomatiyasının təşviqi, bu istiqamətdə ikitərəfli və çoxtərəfli əsasda görülən işlər, gələcək planlar, habelə ölkəmizin beynəlxalq inkişafa yardım siyasətinin prioritetləri və istiqamətlərindən bəhs edilib.

“Xarici siyasətin kommunikasiyası və parlament diplomatiyası” mövzusunda beşinci panel isə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi, mətbuat katibi Ayxan Hacızadənin əsas natiqlər qismində iştirakı ilə keçirilib. Panel müzakirəsi çərçivəsində parlamentlərarası əməkdaşlığın perspektivləri, parlament diplomatiyasının xarici siyasətdə rolu, xarici siyasətin kommunikasiyası, hibrid təhdidlər və dezinformasiya ilə mübarizədə strateji kommunikasiya, ictimai diplomatiya və süni intellektin kommunikasiyada tətbiqi və s. məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

### Xankəndi şəhərində xüsusi sessiya keçiriləcək

Altıncı panel müzakirəsi isə “Xəzər dənizi, sərhədlərin delimitasiyası, beynəlxalq müqavilələr” mövzusunda olub və xarici işlər nazirinin müavini Samir Şərifovun əsas natiq qismində iştirakı ilə reallaşıb. Tədbir çərçivəsində Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi istiqamətində cari vəziyyət, Azərbaycan-Ermənistan arasında sərhəd delimitasiyası və demarkasiyası üzrə planlar, habelə ikitərəfli və çoxtərəfli beynəlxalq-hüquqi bazanın inkişaf etdirilməsi məsələləri müzakirə olunub.

Qeyd edək ki, 9 iyul - Azərbaycan Respublikası diplomatik xidmət orqanları əməkdaşlarının peşə bayramı günündə isə müşavirə işini Xankəndi şəhərində xüsusi sessiya ilə davam etdirəcək.

Beləliklə, xarici siyasət sahəsində əldə edilmiş nəticələr qarşıya növbəti yeni vəzifələr qoyur və Azərbaycanın uzunmüddətli maraqlarının reallaşması baxımından geniş imkanlar açır. Azərbaycanın xarici siyasət prioritetləri sırasına ölkəmizin suverenliyinin və müstəqilliyinin gücləndirilməsi, habelə bütün beynəlxalq aktorlarla qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi və digər məsələlər daxildir. Son illərdə regionda baş verənlər onu göstərir ki, güclü Azərbaycan dövləti qarşıya qoyulan məqsədlərə daim nail olur və bu tendensiya bundan sonra da davam etdiriləcək.

***Nardar BAYRAMLI***

# Enerji idxalında yeni perspektiv...

## Azərbaycan Yaxın Şərq regionu ilə əlaqələri genişləndirir

**Azərbaycanın son illərdə əldə etdiyi uğurlu inkişaf trayektoiyası çoxşaxəlidir. Son 5 ildə ərazi bütövlüyümüzün və suverenliyimizin bərpa olunması kimi böyük nailiyyətə imza atmamız, beynəlxalq aləmin mühüm bir parçasına çevrilə bilməmiz, qlobal proseslərdə təşəbbüskar dövlət kimi yer almamız, yeni düzənin iqtisadi harmoniyasının müasir çağırışlara əsasən formalaşdırılmasında iştirakımız, nəhayət dünyanın siyasi-iqtisadi cəhətlərini (qütblərini) vahid maraq platformasında cəmləməmiz Azərbaycanın xarici siyasət kursunun düzgün, praqmatik və ən əsası gələcəyə hesablanmış şəkildə qurulduğunu göstərir. Milli maraqlara, bərabərhüquqlu əməkdaşlığa, dürüst əlaqələrə söykənən və istinad edən mövqeyimiz, proseslərə və hadisələrə beynəlxalq hüquq prizmasından yanaşmamız bizi dünyanın maraq dairəsinə salır - beləliklə də, Azərbaycan ən yaxın tərəfdaş qismində fərqli istiqamətlər üzrə fərqli ölkələrlə dostluq münasibəti yaradır. Çoxtərəfli əlaqələrin inkişafına verdiyimiz yüksək dəyər ölkəmizin regional aktor səviyyəsində qəbul edilməsində əsaslı rol oynayır. Bu gün Azərbaycan dünyanın aparıcı dövlətləri ilə strateji əlaqələri, hərtərəfli münasibətləri inkişaf etdirir, bu faktı rəsmiləşdirir. Eləcə də öz çevrəsində yaxın qonşuluq əlaqələrinin inkişafına töhfələr verir. Avropanın ən mühüm enerji təchizatlarından biri qismində qəbul edilən Azərbaycan paralel olaraq Qlobal Cənubun liderlərindən biri kimi xarakterizə olunur. Qlobal Cənubun inkişafında, Yaxın Şərqin yeni nizamda siyasi-iqtisadi təmərküzləşməsində, Şərq - Qərb marşrutunun təkmilləşməsində, Afrikanın müasir beynəlxalq münasibətlər sisteminə daha yaxından və öz maraqları çərçivəsində inteqrasiyasında, o cümlədən kolonializmin və müstəmləkəçiliyin ləğvi prosesində oynadığı rol Bakının yürütdüyü siyasətin çoxtərəfli, təsirli konturlarını ortaya qoyur. Bu proses tam gücü ilə irəliyə doğru effektiv bir yol alıb. Xüsusilə, Türkiyə-Azərbaycan strateji birliyi yeni dönəmdə yaxın-uzaq coğrafiyaların inkişafı prosesində əsaslı yer almaq qüdrətindədir.**

## Rəcəb Tayyib Ərdoğan: Biz addımlarımızı Azərbaycanın dəstəyi ilə birləşdirib, birlikdə irəliləmək istəyirik

### Suriyaya təbii qaz tədarükü...

Vurğulandığı kimi, Avropanın mühüm enerji təminatçılarından biri kimi çıxış edən Bakı yeni dönəmdə özünün enerji təchitazı arealını genişləndirmə perspektivinə malikdir. Belə ki, Azərbaycan Suriyaya təbii qaz tədarükü məsələlərində dəstək verməyə hazır olduğunu bəyan edib. Bununla bağlı məlumatı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Xankəndidə ECO toplantısında iştirak edib vətənə dönərkən açıqlayıb: "İyulun 4-də Azərbaycan Prezidenti İlham Əliyevlə görüşdə o, təbii qaz məsələsində Suriyaya istənilən dəstəyi verməyə hazır olduğunu bildirib. İlham Əliyevin belə yanaşması böyük əhəmiyyət kəsb edir. Axı bu gün Suriyanın ən ciddi problemi qazın olmamasıdır və ölkəni enerji ilə təmin etmək lazımdır".

Ərdoğan vurğulayıb ki, Türkiyə də öz növbəsində bu məsələdə öz imkanları daxilində Suriyaya kömək etməyə çalışır: "Lakin bu xoş xəbəri bu gün (4 iyul - red.) İlham Əliyevdən eşidəndə, həqiqətən də mən böyük rahatlıq hiss etdim. Qayıdandan sonra mən bu məlumatı dərhal Türkiyənin energetika nazirinə çatdıracağam və o, hörmətli əl-Şaaraya (Suriya Prezidenti - red.) çatdıracaq. Biz addımlarımızı Azərbaycanın dəstəyi ilə birləşdirib, birlikdə irəliləmək istəyirik".

Qeyd edək ki, Azərbaycanın Yaxın Şərq siyasətində Suriya son dövrlərdə xüsusi bir yer alır. Belə ki, iki ölkə arasında tarixi və mədəni əlaqələr baxımından dərin və qarşılıqlı təsirə əsaslanan bağlılıq mövcud olsa da, son illərə qədər diplomatik əlaqələr zəifləmişdi. Bu dövr ərzində Azərbaycanın diplomatik nümayəndəliyinin fəaliyyətini qeyri-müəyyən müddətdə dayandırması Suriyadakı təhlükəsizlik vəziyyəti və o dövrün mürəkkəb hərbi-siyasi şəraiti ilə əlaqədar idi. Bununla yanaşı, Bəşər Əsədin hakimiyyəti dövründə Azərbaycan - Suriya əlaqələri də yox səviyyəsində xarakterizə oluna bilərdi. Bunun səbəbləri sırasında Suriyanın erməni işğalına bu və ya digər şəkildə dəstək göstərməsi, bu ölkədəki erməni diasporunun anti-Azərbaycan mövqeyi, hətta bu ölkədən ermənilərin qeyri-qanuni olaraq işğal altındakı Azərbaycan torpaqlarına yerləşdirilməsi olmuşdu. Təsadüfi deyildi ki, keçmiş Suriya rejimi beynəlxalq müstəvidə hər zaman Azərbaycanın əleyhinə mövqe tutmuşdu, hətta İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində müsəlman birliyi prinsipinə zidd bəyanatlar vermişdi.



### Dəməşq-Bakı münasibətləri yeni formatda...

İkitərəfli əlaqələr Suriyada 2024-cü ilin 8 dekabrında hakimiyyət dəyişikliyindən sonra yeni bir mərhələyə qədəm qoydu - iki ölkə arasında əməkdaşlığın inkişafı üçün yeni imkanlar yarandı. On iki illik fasilədən sonra Azərbaycanın Dəməşqdəki səfirliyi fəaliyyətini bərpa etdi. 2024-cü ilin 10 dekabrında Azərbaycanın Xarici İşlər Nazirliyi iki ölkə arasında ikitərəfli münasibətlərin bərpa olunacağına ümidini ifadə edən bəyanat yaydı. Dekabrın 29-da isə Azərbaycan xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Dəməşqə səfər etdi, Suriyanın keçid hökumətinin xarici işlər naziri Əsəd Həsən Əş-Şeybani ilə görüşdü. Dekabrın 30-da Azərbaycan Suriyaya ilk humanitar yardım karvanını göndərdi. Bu humanitar yardım Prezident İlham Əliyevin tapşırığına əsasən, Suriyada humanitar böhrandan zərər çəkmiş əhaliyə dəstək məqsədilə göndərildi.

Sonrakı dövrdə Azərbaycan Suriyanın bərpasında Türkiyə ilə yanaşı, iştirakını bəyan edib. Prezident İlham Əliyev bu ilin fevralın 13-də Türkiyənin Azərbaycana yeni təyin olunmuş səfiri Birol Akgünün etimadnaməsini qəbul edərkən Azərbaycanın Suriya məsələsində Türkiyə ilə çiyin-çiyinə dayanacağını bildirmişdi. "Suriya məsələsində Azərbaycan Türkiyənin yanında olduğunu ilk günlərdən bəyan edib. Suriyada sabitliyin, təhlükəsizliyin təmin olunmasına və humanitar problemlərin həllinə Azərbaycan da Türkiyə ilə əlaqələndirilmiş şəkildə öz töhfəsini verməyə hazırdır", - deyə, dövlət başçısı bildirmişdi. Fevralın 15-də isə Azərbaycan Prezidenti Suriyanın müvəqqəti prezidenti Əhməd Əş-Şaraaya təbrik məktubu ünvanlamışdı. Aprel ayının 11-də Antalya Forumu çərçivəsində Azərbaycan Prezidenti ilə Suriyanın keçid dövrü dövlət başçısı arasında ilk görüş reallaşmışdı. Prezident İlham Əliyev Suriyada sabitliyin möhkəmləndirilməsi üçün zəruri olan bərpa prosesində Azərbaycanın iştirak etməyə hazır olduğunu qeyd etdi. Öz növbəsində, Əhməd Əş-Şaraa da Azərbaycan tərəfinin dəstəyinə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirmiş, gələcəkdə energetika, infrastruktur, təhlükəsizlik sahələrində Azərbaycanın Suriyaya dəstək göstərməsinin önəmini qeyd etmişdi.

Türkiyə Prezidenti Ərdoğanın verdiyi açıqlama isə ölkələr arasında əməkdaşlığın yeni səviyyəyə çatdırılması prosesinin növbəti mərhələsindən xəbər verir. Bu addım nəinki ikitərəfli münasibətlərin möhkəmlənməsinə, həm də Yaxın Şərqin siyasi-iqtisadi proseslərinə olduqca vacib müsbət təsir göstərəcək.

### Azərbaycan qlobal enerji platformasında...

Ümumiyyətlə, Azərbaycanın üstləndiyi enerji təminatçısı rolu bütün dünyada təqdir olunur - bunun ən vacib səbəblərindən biri, ölkəmizin yalnız öz milli maraqlarına əsaslanması, hansısa siyasi və ya hərbi proseslərdən təsirlənməməsidir. Azərbaycan hər zaman verdiyi sözün məsuliyyətini ən yüksək səviyyədə yerinə yetirir - bu fakt ölkəmizin Avropa dövlətlərinin enerji təminatında oynadığı rolda daha açıq şəkildə görünür. Qeyd edək ki, bu gün Azərbaycan dünyanın 12, Avropanın 10 ölkəsini, o cümlədən Avropa İttifaqının 8 üzvünü qazla təchiz edir, Aİ-yə əsas qaz tədarükçüləri arasında yer tutur. Azərbaycan gələcək illərdə özünün qaz təchizatçısı kimi payını da artırmaq niyyətindədir. Prezident İlham Əliyev bu il iyunun 2-də 30-cu "Caspian Oil and Gas", 13-cü "Caspian Power" və 30-cu "Baku Energy Forum"un rəsmi açılış mərasimində çıxışında bildirib ki, biz tərəfdaşlarımızla birlikdə Xəzər dənizini Qara dəniz və Aralıq dənizi ilə birləşdirən strateji boru kəmərlərini inşa etmişik. Əlbəttə, bunların tacı Azərbaycanın dəniz yataqlarından İtaliyanın sahilinə qədər uzanan 3500 kilometrlik Cənub Qaz Dəhlizidir: "Əlbəttə, bir çox digər ölkələrin enerji təhlükəsizliyinə sərmayə yatırımı Azərbaycanın geosiyasi əhəmiyyətini artırır. Biz anlayırıq ki, bundan sonra da enerji, neft və qaz bir çox ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rol oynayacaqdır. Biz ixrac coğrafiyasının genişləndirilməsi üçün bəzi ölkələrlə danışıqlar və sərmayə qoyuluşu mərhələsindəyik. Boru kəməri ilə müəyyən coğrafiyanın qazla təmin edilməsi baxımından Azərbaycan bu gün qlobal səviyyədə aparıcı dövlətə çevrilmişdir. Bizim təbii qaz ixracımız ötən il 25 milyard kubmetrə çatmışdır. Biz hasilatı artırmaq niyyətindəyik, çünki artıq müqavilələr imzalanıbdır və proses getməkdədir. İşlər planlarımıza uyğun getsə, biz 2030-cu ilədək qaz ixracını 8 milyard kubmetrə qədər artıracağıq və o, xarici bazarlara təklif ediləcəkdir".

### Yaxın Şərq perspektivi...

Vurğulanmalıdır ki, Azərbaycanın Suriyanın qaz təminatında iştirakı Yaxın Şərqin qaz təchizatında iştirak baxımından ilk deyil - bu mənada, İsrail, İordaniya, Misir və digər ölkələrlə əməkdaşlıq perspektivləri mövcuddur. Azərbaycan Yaxın Şərqdə etibarlı enerji partnyoru kimi qəbul olunur. BƏƏ və Səudiyyə Ərəbistanı ilə Azərbaycan arasında enerji sahəsində əməkdaşlıq genişlənməkdədir. Bu əməkdaşlıq əsasən bərpa olunan enerji sahəsində olsa da, perspektivdə enerji texnologiyalarını əhatə edə bilər.

Qeyd edək ki, Azərbaycan qazı TANAP vasitəsilə Türkiyəyə çatır. Türkiyənin öz növbəsində İraq, Suriya, Livan və İordaniya ilə enerji əlaqələri mövcuddur. Beləliklə, Azərbaycanın qazı Türkiyə üzərindən Yaxın Şərqə çatmaq potensialına malikdir. Bu istiqamətdə regional interkonnektor sistemləri genişləndikcə, Azərbaycan qazının dolayı yolla Yaxın Şərq bazarlarına daxil olması mümkünləşəcək. Azərbaycanın bu bölgədə enerji əməkdaşlığı platforması yaratması qlobal enerji təhlükəsizliyi, bazar diversifikasiyası və qaz tədarükünün şaxələndirilməsi baxımından mühüm rol oynayır. Nəticə etibarı ilə, Azərbaycanın Yaxın Şərqin qaz təchizatında rolu hələ tam aktiv olmasa da, perspektivdə infrastrukturun inkişafı, regional əməkdaşlıq sazişləri, beynəlxalq qaz ticarəti mexanizmləri və enerji diplomatiyası bu rolu daha da genişləndirmək imkanına malikdir.

***Pərviz SADAYOĞLU***

# 17 ildə 170 milyard kubmetr qaz

## Azərbaycan 12 dövlətin qaz təhlükəsizliyinin dayanıqlı tədarükçüsünə çevrilib

Dövlət Statistika Komitəsinin (DSK) məlumatına görə, Azərbaycan qlobal bazara təbii qaz ixrac etdiyi vaxtdan, yəni 2009-cu ildən 2025-ci ilin aprel ayının sonunadək 170 milyard kubmetrdən çox təbii qaz tədarünü təmin edib. Ötən 17 ildə respublikamız dünya bazarında hər il davamlı olaraq qaz ixracının coğrafiyasını genişləndirməklə 12 dövlətin enerji təhlükəsizliyinin təminatçısına çevrilib. Yanacağın nəqlinə başlananda Azərbaycan yalnız Gürcüstana təbii qaz ixrac edirdisə, hazırda enerji alıcılarının sayı 12-yə bərabərdir. Qeyd edilən dövrdə ölkəmizin qaz nəql etdiyi dövlətlərin sırasında qardaş Tükiyə ilk yerdə dayanır, Türkiyəyə ixrac edilmiş qazın həcmi 84,57 milyard kubmetr təşkil edir ki, bu da cəmi ixracın 50 faizi deməkdir. Qaz həcminə görə, ikinci alıcı ölkə İtaliyadır, yanacağın nəql həcmi 37,93 milyard kubmetrə bərabərdir.

Azərbaycanın qaz nəql etdiyi 17 illik dövr 2 mərhələyə bölünə bilər. Birinci dövr Bakı-Tbilisi-Ərzurum və TANAP-la qazın Gürcüstan, Türkiyə, Yunanıstana nəql edildiyi dövrdür. İkinci, qaz coğrafiyasında ən həlledici mərhələ olan Cənub Qaz Dəhlizinin nəhəng arteriyası olan TAP kəmərinin işə düşməsi isə 2020-ci ilin dekabrından Avropa İttifaqına ixracın dayanıqlı başlanmasıdır. 2021-ci ildə Azərbaycan Avropa regionuna 8 milyard kubmetr, 2022-ci ildə 11 milyard kubmetrdən çox qaz ixrac edib.

2022-ci il iyulun 18-də Avropa Komissiyasının Prezidenti xanım Ursula Fon der Lyayenin ölkəmizə səfəri zamanı "Azərbaycan və Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması Azərbaycanın Avropa Birliyində əsas qaz təchizatçılarından biri kimi mövqeyini möhkəmləndirdi və yanacaq həcmlərinin artırılmasına dair niyyət ifadə olundu. Bu plana əsasən, qaz nəqli daha da artırılıb. 2023-cü ildə isə yanacaq nəqli 12 milyard kubmetr, 2024-cü ildə respublikamız xarici ölkələrə 25,2 milyard kubmetr həcmində qaz ixrac edib ki, onun 12,9 milyard kubmetri Avropa dövlətlərinin payına düşür.

Hazırda ölkəmiz Türkiyə, Gürcüstan, İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiyaya qaz nəqlini təmin etməkdədir.



### TAP kəmərinin ötürücülük gücü genişləndirilir

Mövcud proqnozlara görə, 2025-ci ildə ölkəmzin Avropa regionuna ixracı 14 milyard kubmetrə çata bilər. Növbəti illərdə ixracın artırılması üçün digər mənbələr də səfərbər olunacaq. Bu isə digər ölkələrə də qaz nəqlini təmin edə biləcək. Anlaşma Memorandumuna əsasən, 2027-ci illərdə ölkəmizin Avropaya qaz nəqli 20 milyard kubmetrədək artırılacaq. Bu rəqəmlər və proqnozlar Azərbaycanın qaz potensialını da artırmış olacaq və qaz təchizatının coğrafiyasının qarşıdakı illərdə daha da genişlənməsinə imkan verəcək. Növbəti illərdə Moldova, Avstriya, Moldovanın da qaz əldə etməsi planlaşdırılır.

Azərbaycanın qaz istehsalı həcmlərinin artması və yanacağa olan tələbatın yüksəlməsi Cənub Qaz Dəhlizinin ixrac infrastrukturunun da genişləndirilməsini labüd edir. Bu ehtiyaclar fonunda TAP kəmərinin ötürücülük potensialının genişləndirilməsi istiqamətində davamlı addımlar atılır.

### "Şahdəniz"dən sonra "Abşeron" dövrü başlayır

Azərbaycanda qaz hasilatında əsas mənbə olan "Şahdəniz -2" layihəsi üzrə hasilat hər il artır və təkcə bu mənbədən hazırda illik 16 milyard kub.metr qaz istehsal edilir. "Şahdəniz"in əlavə ehtiyatlarından başqa Xəzərdə kəşf edilmiş "Abşeron" və "Ümid" yataqları, "Azəri-Çıraq-Günəşli" yataqlar blokundakı dərin qaz ehtiyatları, olduqca perspektivli "Şəfəq-Asiman", "Babək", "Zəfər-Məşəl" və başqa strukturlar da ölkəmizin potensialının artmasında mühüm rol oynamaqdadır. Əsas perspektivli yataqlardan biri olan "Abşeron" yatağında da hasilatın həcmində əhəmiyyətli artımlar müşahidə edilməkdədir. 2024-cü ildə bu yataqdan 1,5 milyard kubmetrdən çox qaz hasil edilib ki, bu, əvvəlki illə nisbətdə 2 dəfəyə yaxın artım deməkdir. Yataqda 350-360 milyard kubmetr qaz ehtiyatları ehtimal edilir. Digər qiymətləndirmələr bu yatağın ehtiyatlarının 400 milyard kubmetrdən də çox olduğunu deməyə əsas verir. Yeri gəlmişkən, dünyanın ən nüfuzlu iqtisadi institutlarından biri olan "Fitch Ratings" bir müddət əvvəl açıqladığı hesabatda "Abşeron" qaz-kondensat yatağının "Şahdəniz-2"dən sonra Azərbaycanın ən böyük qaz mədəni olduğunu bildirib.

### Digər türk dövlətlərinin TAP-a qoşulması reallaşır

Avropa İttifaqı Azərbaycanın liderliyi sayəsində bölgənin digər ölkələrini - Türkmənistan, Özbəkistan, Qazaxıstanın da Cənub Qaz Dəhlizinə qoşulmasını və bununla Xəzər mənbəyindən Avropaya illik 100 milyard kubmetrə yaxın qaz nəqlinin əldə olunmasına çalışır. Aİ Mərkəzi Asiya-Xəzər regionlarından çoxşaxəli qaz nəqli tranziti şəbəkəsi yaratmaq niyyətindədir. Mərkəzi Asiyanın ehtiyatlarının Avropa bazarına çatdırılması istisna deyil. Türkmənistan qazının Avropaya nəqli üçün Azərbaycanın müəllifi olduğu TAP kəməri və Cənubi Qaz Dəhlizi maşrutu mövcuddur və işləkdir. Qalır türkmən qazını bu dəhlizə cəlb edərək Avropaya çatdırmaq. Bunun üçün hüquqi mexanizm və beynəlxalq sazişlər olmalıdır. Artıq bu istiqamətdə də hüquqi-iqtisadi təminatlar yaradılır və bu beynəlxalq öhdəliyi isə ilk növbədə Azərbaycan və Türkiyə öz üzərinə götürüb. Ötən ay Bakıda Azərbaycan və Türkiyə arasında təbii qaz sahəsində imzalanan saziş çərçivəsində Türkmənistan qazının Gürcüstan ərazisi ilə Türkiyəyə tədarükü ilə bağlı əldə olunmuş razılaşmaya əsasən, Türkmənistan qazı Bakı-Tbilisi-Ərzurum-TANAP- vasitəsilə nəql olunacaq, gələcəkdə isə TAP-la Avropaya ixracı nəzədə tutulur.

***ELBRUS CƏFƏRLİ***

## Milli Məclisin iclasında...

# 15 məsələ müzakirə edilib



İyulun 8-də Milli Məclisin növbəti iclası keçirilib. Spiker Sahibə Qafarova iclasın gündəliyi haqqında məlumat verib. Gündəliyə 15 məsələ daxil edilib.

Əvvəlcə "Naxçıvan Muxtar Respublikasının (MR) Konstitusiyasında dəyişikliklərin təsdiq edilməsi haqqında" Konstitusiya qanununun layihəsi üçüncü oxunuşda qəbul edilib. Dəyişikliklər Naxçıvan MR-in idarəetmə strukturunun mərkəzləşdirilməsi, səlahiyyət bölgüsünün dəqiqləşdirilməsi və Azərbaycan Prezidentinin rolu ilə bağlı əhəmiyyətli yeniliklər ehtiva edir. Belə ki, Naxçıvan MR-də Azərbaycan Prezidentinin səlahiyyətli nümayəndəliyi təsis olunur. Bu qurum prezidentə birbaşa tabe olacaq və onun müəyyənləşdirdiyi vəzifələri icra edəcək. Naxçıvan MR-in dövlət rəmzləri Azərbaycan Respublikasının dövlət rəmzləri ilə eyniləşdirilir. Konstitusiyanın preambulasında Naxçıvanın Azərbaycanın ayrılmaz hissəsi olması vurğulanır. Naxçıvan MR Ali Məclisinə seçkilər Prezidentin qərarı ilə, Məclis sədrinin təklifi əsasında keçiriləcək. Müharibə şəraitində seçkilərin keçirilməsinin mümkünsüzlüyü halında səlahiyyət müddəti uzadılacaq. Məclisin fəaliyyət göstərməməsi və ya 31 deputatın tələbi əsasında Prezident tərəfindən buraxılması imkanı yaradılıb. Nazirlər Kabineti və digər icra strukturlarının fəaliyyəti Prezidentin razılığı ilə tənzimlənəcək. Mərkəzi icra orqanlarının yaradılması və ləğvi Prezidentin razılığı ilə mümkün olacaq. "Qərar" anlayışı "sərəncam" anlayışı ilə əvəz edilib, hüquqi normativ aktların qəbul qaydalarında dəqiqləşmələr aparılıb. Qanunların qəbul qaydası yenidən müəyyən edilib, bəzi səlahiyyətlər ləğv olunub və ya Azərbaycan Prezidentinə verilib. Bu dəyişikliklər Naxçıvan Muxtar Respublikasının hüquqi və inzibati sisteminin Azərbaycan Respublikası Konstitusiyası ilə daha sıx inteqrasiyasını təmin etməyi hədəfləyir.

Sonra "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə layihə üçüncü oxunuşda qəbul olunub. Belə ki, Milli Məclis Konstitusiyanın 156-cı maddəsini rəhbər tutaraq "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa dəyişiklik edib. Dəyişikliyə əsasən, həmin Konstitusiya Qanununun 2.10-cu maddəsindən "III," rəqəmi çıxarılıb. Bu düzəliş "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun əvvəlki redaksiyalarının dərc olunduğu rəsmi mənbələrdə, xüsusilə 2011-ci il Qanunvericilik Toplusunun № 2, maddə 69 (Cild I) və 2024-cü il Toplusunun № 10, maddə 1109 nömrəli buraxılışlarında qeyd olunub.

Qeyd edilən dəyişiklik normativ hüquqi aktların hüquqi qüvvə iyerarxiyasına və ya tətbiq dairəsinə dair texniki dəqiqləşdirmə kimi qiymətləndirilə bilər və normativ aktların sistemləşdirilməsi baxımından əhəmiyyət daşıyır.

İclasda, həmçinin Konstitusiyanın 94-cü maddəsinin I hissəsinin 5-ci bəndinə əsasən "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunda dəyişikliklər də qəbul olunub. Qanuna edilən dəyişikliklərə əsasən, 18.7-ci maddənin ikinci cümləsində "attestasiyadan" sözü "müsahibədən" sözü ilə əvəz olunur. Həmçinin 29.2.9-cu maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilərək yeni 29.2.10-cu maddə əlavə edilir. Bu maddədə prokurorluqda qulluq keçmənin son yaş həddinə çatdıqda əmək münasibətlərinin başa çatması nəzərdə tutulur. 32-ci maddə üzrə isə yaş həddi ilə bağlı dəyişikliklər edilib. Belə ki, 32.2-ci maddədə "yaş həddi 60" ifadəsi "son yaş həddi 65" ilə əvəz olunub, 32.3-cü maddənin müəyyən cümləleri çıxarılıb, 32.4-cü maddədə isə "Yaş" sözü "Son yaş" ilə dəyişdirilib. Qanunun keçid müddəasına əsasən, bu dəyişikliklər qüvvəyə mindiyi gündən prokurorluqda qulluqda olan və bundan sonra qəbul edilən prokurorluq işçilərinə şamil edilir.

Qanunvericilikdə edilən bu yeniliklər prokurorluq orqanlarında qulluq keçmə yaş həddinin artırılması və prosedurların təkmilləşdirilməsinə xidmət edir.

Milli Məclis "Polis haqqında" Qanuna dəyişiklikləri də üçüncü oxunuşda qəbul edib. Bu dəyişikliklər polis əməkdaşlarının sosial müdafiəsini gücləndirmək və polis orqanlarının maddi-texniki bazasını möhkəmləndirmək məqsədi daşıyır. Qanun dəyişikliyi ilə "Polis haqqında" Qanunun 39-cu maddəsinə III və IV hissələr əlavə olunub. Yeni müddəalara əsasən, müəyyən maliyyə vəsaitləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun xəzinə hesabına köçürüləcək. Bu vəsaitlər aşağıdakılardan ibarətdir: Birincisi, polis orqanları tərəfindən aparılan istintaq çərçivəsində dövlət büdcəsinə cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsi məqsədilə köçürülən məbləğin 5 faizi, ikincisi isə cinayət məsuliyyətindən azad edilmə üçün Cinayət Məcəlləsinə uyğun olaraq dövlət büdcəsinə edilən ödənişlərin 5 faizi daxildir.

Həmçinin toplanmış bu vəsaitlərin necə istifadə ediləcəyi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum tərəfindən müəyyənləşəcək.

İclasda Qeyri-Hökumət Təşkilatlarının (QHT) fəaliyyətinə və maliyyələşməsinə dair nəzarət mexanizmlərini daha da gücləndirən dəyişikliklər də üçüncü oxunuşda qəbul edilib. Belə ki, deputatlar "Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında" və "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunlarda dəyişiklikləri təsdiqləyiblər.

Yeni hüquqi tənzimləmələr çərçivəsində qeydiyyata alınmamış xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və işlərin görülməsi ilə bağlı müqavilələr üzrə bank və digər maliyyə əməliyyatlarının aparılmasına qadağa qoyulur. Konkret olaraq "Qeyri-hökumət təşkilatları haqqında" Qanunun 24-2.1-ci maddəsinə edilən əlavəyə əsasən, qeydiyyata alınmamış xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilə üzrə bank əməliyyatları və hər hansı digər əməliyyatlar aparıla bilməz. Bundan əlavə, 24-2.2-ci maddədə də əhəmiyyətli dəyişikliklər edilib. Yeni redaksiyada qeydiyyatsız xarici maliyyə mənbələri hesabına göstərilən xidmətlər və görülən işlərə görə maliyyə vəsaiti və ya digər maddi vasitələrin qəbul edilməsi də qadağan olunur. Bu dəyişikliklərin məqsədi QHT-lərin maliyyə şəffaflığını artırmaq və xarici təsirlərin qarşısını almaq kimi şərh olunur.

Eyni zamanda, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanunun 12.3-cü maddəsində də dəyişiklik edilib. Burada "qrant və ianə alarkən, habelə verərkən" ifadəsi maddədən çıxarılıb, "qrant və ianələr" ifadəsi isə daha geniş "əmlakının pul və ya digər şəkildə formalaşdırılma mənbələri" anlayışı ilə əvəz olunub. Bu dəyişikliyin məqsədi əmlakın mənbəyinin daha geniş kontekstdə araşdırılması və qeyri-qanuni maliyyə axınlarına qarşı effektiv mübarizə tədbirlərinin gücləndirilməsidir.

Qeyd edək ki, iclasın gündəliyində olan digər qanun layihələri də müzakirə olunaraq qəbul edilib.

*Nardar BAYRAMLI*

# "Medianın inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda konfrans keçirilib

İyulun 8-də Heydər Əliyev Mərkəzində Medianın İnkişafı Agentliyinin təşkilatçılığı ilə "Medianın inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda konfrans təşkil edilib.



AZƏRTAC xəbər verir ki, iştirakçılar əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin jurnalistlərlə görüşlərini, Azərbaycan mətbuat tarixində mühüm rol oynamış nəşrləri əks etdirən "Azərbaycan mətbuatının 150 ili: Tarixdən günümüzə" adlı sərgiyə baxış keçiriblər.

Konfransın açılış mərasimində çıxış edən Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov Ümummilli Lider Heydər Əliyev tərəfindən təməli qoyulan media prinsiplərinin bu gün də dövlətin informasiya siyasətində və medianın fəaliyyətində öz əksini tapdığını və aktuallığını qoruyub saxladığını diqqətə çatdırıb. O, Azərbaycanda müstəqil mətbuatın formalaşması və sürətli inkişafının təmin edilməsində, bu sahəni tənzimləyən qanunvericilik bazasının təkmilləşdirilərək beynəlxalq standartlara uyğunlaşdırılmasında Ulu Öndərin əvəzsiz rolu barədə danışıb.

Ə.İsmayılov qeyd edib ki, ölkəmizin sürətli inkişafı, genişlənən quruculuq prosesi, dünyada lider mövqeyinin güclənməsi öz növbəsində media gündəmini də zənginləşdirir və medianı öz işini ölkənin dinamik inkişaf tempinə uyğun qurmağa sövq edir. Medianın peşəkarlığının artırılması, iqtisadi dayaqlarının gücləndirilməsi Azərbaycan dövlətinin bütün inkişaf mərhələlərində informasiya siyasətinin prioritetlərindəndir.

Konfrans çərçivəsində "Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin sədr müavini Rafiq Həşimovun moderatorluğu ilə "Ulu Öndər Heydər Əliyev tərəfindən təməli qoyulan media prinsipləri" mövzusunda panel sessiya təşkil edilib.

Sessiyada çıxış edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova bildirib ki, demokratik dünyanın və demokratik düşüncəyə sahib insanların kəşf etdikləri, arxasında dayandıqları və inkişafına töhfə verdikləri ən vacib sahələrdən biri də mətbuatdır. Bu sahədə əldə olunan nailiyyətlər xüsusi əhəmiyyət kəsb edir.

Komitə sədri qeyd edib ki, cəmiyyət inkişaf etdikcə, bu tərəqqi mətbuat sahəsində də özünü göstərir. Mətbuatın yaranması, keçdiyi yol və əldə etdiyi uğurlar barədə danışarkən nəzərə almaq lazımdır ki, əgər müstəqilliyimizin tarixi 100 ildən bir qədər artıqdırsa, mətbuatımızın yaranma tarixi onu da qabaqlayır. Bu baxımdan, müstəqil dövlətlərin qurulması, inkişaf etməsi həm də elə mətbuatın əldə etdiyi nailiyyətdir.

"Azərbaycan mətbuatı özünün ən yüksək inkişaf dövrünü məhz Ümummilli Lider Heydər Əliyevin hakimiyyəti illərində yaşayıb. Ulu Öndərin bu sahədə ən böyük xidmətlərindən biri senzuranın ləğvi olub. Heydər Əliyev hər zaman mətbuatı azad görmək istəyirdi", - deyə B.Muradova vurğulayıb.

Noyabr ayında çox vacib bir tarixin - böyük Qələbənin beş illiyinin qeyd olunacağını diqqətə çatdıran Azərbaycan Yazıçılar Birliyinin üzvü, TASS agentliyinin baş direktorunun birinci müavini Mixail Qusman Medianın İnkişafı Agentliyinin rəhbərliyinə müraciət edərək, həmin ərəfədə Prezident İlham Əliyevin Azərbaycan mediasının inkişafındakı rolu ilə bağlı konfransın keçirilməsi təklifini irəli sürərək deyib: "Düşünürəm ki, bu, çox vacib konfrans olacaq. Üstəlik, Prezident İlham Əliyevin 44 günlük Vətən müharibəsi zamanı verdiyi 26 müsahibə peşəkar jurnalist diplomatiyasının ən böyük fantastik nümunəsidir. Bilirəm ki, bu müsahibələrlə bağlı bir kitab nəşr edildi. Lakin mənə elə gəlir ki, Ali Baş Komandanın informasiya sahəsindəki şücaəti ayrıca müzakirə və təhlil olunmalıdır. Belə bir konfrans keçirilsə, xoşbəxt olaram".

Panel sessiyada çıxış edən YAP İdarə Heyətinin üzvü və Veteranlar Şurasının sədri Arif Rəhimzadə Ulu Öndər Heydər Əliyevin dövlətçilik tariximizdəki əvəzsiz rolundan danışıb. Bildirib ki, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycan xalqının taleyində dönüş nöqtəsi baş verib. Məhz dahi Liderin uzaqgörən siyasəti, dəmir iradəsi və xalqına olan sonsuz sevgisi sayəsində ölkə tənəzzüldən xilas olaraq inkişaf yoluna qədəm qoyub.

Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Anar İsgəndərov bu gün ölkəmizdə, sözün əsl mənasında, güclü və nüfuzlu mətbuatın mövcud olduğunu vurğulayıb. Deputat qeyd edib ki, media ordusu Azərbaycan tarixini və həqiqətlərini dünyaya çatdırmaq üçün mümkün olan bütün vasitələrdən istifadə edib və bu istiqamətdə mühüm fəaliyyət göstərib.

Milli Məclisin deputatı, Əməkdar jurnalist Vüqar Rəhimzadə diqqətə çatdırıb ki, Ulu Öndər Heydər Əliyev təkcə jurnalistikaya deyil, ümumiyyətlə, bütün sahələrdə görülən işlərə xüsusi önəm verirdi. V.Rəhimzadə qeyd edib ki, ideologiya, dövlət işləri öz yerində, amma jurnalistikanın peşəkar şəkildə formalaşması və dövlətə, dövlətçiliyə sadiqliyini nümayiş etdirməsi, vətəndaşlara xidmət nümunəsini yaxşı mənada ortaya qoyması qarşıya qoyulmuş ən böyük hədəflərdən biridir.

Tədbirin sonunda "Heydər Əliyevin təhsil siyasəti: jurnalist peşəkarlığının artırılmasında təhsilin rolu" mövzusunda dəyirmi masa keçirilib.

Medianın İnkişafı Agentliyinin Naxçıvan regional idarəsinin müdiri Vəfa İsgəndərovanın moderatorluğu ilə təşkil olunan müzakirədə jurnalistika və kommunikasiya sahəsində çalışan akademik nümayəndələr iştirak ediblər. Diqqətə çatdırılıb ki, Ulu Öndərin təhsil strategiyası çərçivəsində jurnalistika sahəsində peşəkar kadr potensialının artırılması, ali təhsil müəssisələrində sözügedən ixtisasın inkişafı və təkmilləşdirilməsi ilə yanaşı, jurnalistikanın elmi əsaslara söykənən inkişafı üçün vacib islahatlar aparılaraq medianın keyfiyyətinin yüksəldilməsi təmin edilib.

# Süni intellekt strategiyamız...

## Rəqəmsal transformasiyanın mühüm qolu!

Son illər süni intellekt texnologiyası dünyanın ayrılmaz parçasına çevrilib. Hətta qlobal mühitdə süni intellektlə bağlı kəskin rəqabət mühiti formalaşmaqdadır. Artıq bu texnologiyaya nəzarət, onların hazırlanması və istifadəsi siyasi və iqtisadi baxımdan da mühüm amil hesab edilir. Bir sözlə, süni intellekt sadəcə, texnoloji bir yenilik deyil. İdarəetməni, təhlükəsizliyi, iqtisadiyyatı, sosial həyatı köklü şəkildə dəyişdirən bir çevriliş dalğasıdır.

Azərbaycan dünyada baş verən qlobal çağırışlara adekvat reaksiya verir, texnoloji inkişafla ayaqlaşmağa çalışır. Belə ki, ölkəmizdə də süni intellektin tətbiq sahələrinin genişləndirilməsi bu günün əsas çağırışları sırasında yer alır. Onun tətbiqinin genişləndirilməsi üçün müzakirələr və araşdırmalar aparılır.

**Dövlət qurumlarında süni intellektin tətbiqi**

Bugünlərdə Azərbaycanda süni intellekt texnologiyalarının dövlət idarəçiliyində tətbiqi istiqamətində fəaliyyətin genişləndiriləcəyi bildirilib. Bu barədə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyindən (İRİA) məlumat verilib. Qeyd olunub ki, bu kontekstdə Azərbaycan hökuməti dövlət xidmətlərinin daha çevik, effektiv və data əsaslı təşkili üçün yeni mərhələyə qədəm qoyur: "İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi (İRİA) Rəqəmsallaşma üzrə Yol Xəritələri çərçivəsində dövlət qurumlarında süni intellekt texnologiyalarının tətbiqi və qarşılıqlı əməkdaşlığın gücləndirilməsi məqsədilə sistemli hazırlıq işləri həyata keçirir. Bu çərçivədə Təhsil Nazirliyi, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi, Tibbi Ərazi Bölmələrin İdarəetmə Birliyi (TƏBİB) və Dövlət İmtahan Mərkəzinin əməkdaşları üçün "Süni İntellekt" təlim proqramı təşkil olunub. Onlayn və əyani formatda keçirilən təlimlər çərçivəsində iştirakçılar süni intellekt sahəsində nəzəri biliklərlə yanaşı, praktiki bacarıqlar da əldə ediblər. Təlim iştirakçılarına süni intellekt həllərinin hazırlanması və real dünyada tətbiqi barədə geniş məlumat verilib".

İRİA-nın Data idarəolunması departamentinin müdiri Kamran Ağayevin sözlərinə görə, məlumatların keyfiyyəti, etik məsələlər və dövlət idarəçiliyində süni intellektin inteqrasiyası üçün lazımi texniki və institusional infrastruktur məsələləri diqqət mərkəzində olub: "Dövlət qurumları ilə növbəti mərhələdə həyata keçiriləcək süni intellekt əsaslı analitik sistemlər, qərar dəstək mexanizmləri və avtomatlaşdırılmış xidmət modelləri üzrə əməkdaşlıq planı da formalaşdırılıb.

Bu təşəbbüsün məqsədi dövlət qurumlarında süni intellekt layihələrinin planlaşdırılması, icrası üçün zəruri bilik və bacarıqların formalaşdırılmasını tə-



min etməkdir".

**Çoxşaxəli hədəflər müəyyən edilib...**

İKT üzrə mütəxəssis Fərid Pərdəşünas "Yeni Azərbaycan"a açıqlamasında bildirib ki, müasir dövrdə ağıllı texnologiyaların idarəçilik sahəsinə inteqrasiyası qaçılmaz reallıqdır: "Azərbaycanda bu istiqamətdə atılan addımlar müsbət dəyərləndirilir. Məlumdur ki, ölkə başçısı "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"nın təsdiq edilməsi haqqında Sərəncam imzalamışdı. Bu sənəd təkcə texnologiyaların inkişafı ilə bağlı deyil, eyni zamanda, dövlət idarəçiliyinin səmərəliliyinin artırılması, milli təhlükəsizlik, insan kapitalının gücləndirilməsi, yeni iqtisadi modellərin qurulması və beynəlxalq əməkdaşlıq istiqamətində də çoxşaxəli hədəfləri müəyyən edir.

Strategiyanın əsas prioritetlərindən biri ölkədə süni intellektin inkişafı üçün zəruri olan texnoloji və institusional infrastrukturun yaradılmasıdır. Buraya yüksək hesablama gücü olan serverlər, məlumat mərkəzləri, milli bulud sistemləri, açıq məlumat bazaları və digər texnoloji dayaqlar daxildir. Süni intellekt məlumatlar üzərində qurulan bir texnologiya olduğu üçün bu sahədə məlumatların toplanması, saxlanması, emalı və istifadəsi üzrə şəffaf, çevik və səmərəli sistemlərin qurulması hədəflənir".

**Hökumət-vətəndaş arasında əlaqələrin dinamikası**

Ekspertin sözlərinə görə, dövlət idarəçiliyində rəqəmsal transformasiyalar yalnız funksionallığın, səmərəliliyin artırılmasından ibarət deyil, eləcə də, dövlət xidmətlərinin genişləndirilməsində və elektron iştirakın gücləndirilməsində mühüm rol oynayır: "Bütün dünyada rəqəmsal dövlətin inkişaf etdirilməsi üçün müxtəlif modellər təklif olunsa da, hazırda ölkələr əsas diqqəti vətəndaşyönümlü yanaşma əsasında fərdiləşdirilmiş xidmətlərin göstərilməsinə yönəldiblər.

Rəqəmsal dövlətin inkişafı ilə dövlət administrasiyası və idarələri həm struktur, həm də hökumət-vətəndaş arasında əlaqələrin dinamikası baxımından sürətli şəkildə transformasiya olunur. Aydındır ki, bu, yalnız dövlət idarəçiliyində rəqəmsal transformasiyaların həyata keçirlməsi və süni intellekt texnologiyalarının tətbiqi vasitəsilə mümkündür".

*Səlim*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi" istiqaməti üzrə hazırlanmışdır**

# Xocalı qatili Ohanyan həbs edilir? - deputat toxunulmazlığı ləğv olundu...

## Paşinyan kilsə nümayəndələrini təhqir etdi: azğın, antimilli və dövlət əleyhinə olan antixristlər...

Ermənistanda bir müddətdir davam edən gərginlik yeni mərhələyə qədəm qoyub. Baş verənlərin ardından emosiyaların zəifləyəcəyi düşünülsə də, baş nazir Nikol Paşinyan yenidən kilsə ilə bağlı sosial şəbəkə statusu yazıb. Bu dəfə daha ağır və sərt ifadələrdən istifadə edən Paşinyan bildirib ki, kilsə hazırda antixristian, əxlaqsız, milli maraqlara və dövlətçiliyə qarşı çıxan bir qrupun nəzarətindədir. Paşinyan qeyd edib ki, Erməni Apostol Kilsəsinin bu qruplardan azad olunmasına şəxsən rəhbərlik etməyi planlaşdırır. "Əsas məsələ bu müddət ərzində aydın oldu: İsa Məsih ilə Nersisyan, Qalstyan, Ajapaxyan və digərlərinin təlimlərinin heç bir əlaqəsinin olmaması. İsa Məsihin Evi azğın, antimilli və dövlət əleyhinə olan antixristlər tərəfindən tutulub və o, azad edilməlidir. Bu azadlığa özüm rəhbərlik edəcəm".

### Arxiyepiskop cavab verdi...

Arxiyepiskop Mikael Ajapaxyan isə Paşinyanın statusuna cavab verib. "Bu gün səhər xüsusi göstərişlə barəmdə qanunsuz cinayət təqibi başladan (adını çəkmərəm) bütün ermənilərin katolikosuna, mənə və arxiyepiskop Baqrat Qalstanyana qarşı növbəti yalan və böhtan xarakterli bəyanatla çıxış edib. Bu məsələ ilə bağlı yalnız bir şeyi deyim: mənim dərin əminliyimə görə, arxiyepiskop Baqrat Qalstanyan heç bir terror qruplaşması yaratmayıb. Ona görə də mən olmayan bir şeyi dəstəkləyə və ya iştirak edə bilmərəm. "Başa düşürsən, sən, ......? (hər kəs öz mülahizəsinə görə əlavə edə bilər)," arxiyepiskop qeyd etdi.



### Karapetyanın ofisindən 37 sənəd götürülüb

Samvel Karapetyana məxsus "Ermənistanın Elektrik Şəbəkələri" şirkətinin milliləşdirilməsi haqqında qanun layihəsinin qəbulunun ardından Ermənistan hüquq-mühafizə orqanları dünən səhər saatlarında "Ermənistan Elektrik Şəbəkələri" QSC-nin inzibati binasında xüsusi əməliyyat həyata keçiriblər. Şirkətin nümayəndəsi Natalya Saracyan hadisə ilə bağlı açıqlama verərək bildirib ki, əməkdaşlar hələ işə başlamamışdan əvvəl hüquq-mühafizə əməkdaşları binaya daxil olub və giriş-çıxışa nəzarət ediblər.

Hüquq-mühafizə orqanlarının əməkdaşları Ermənistan Elektrik Şəbəkələrinin (ENA) ofisini tərk etdikdən sonra İdarə Heyətinin sədri Narek Karapetyan jurnalistlərə bildirib ki, istintaq zamanı onun ofisindən 37 sənəd götürülüb. "Onlar nə istəsələr deyə bilərlər - aydındır ki, əvvəlcədən planlaşdırılmış prosesi başlatmağa çalışırlar. Amma hələ də düzgün mövqe tuta bilməyiblər. Bu gün Ermənistanda heç kim həbsdən qorxmur. Nə qədər istəsələr, həbs etsinlər. İndi Ermənistanda dəmir barmaqlıqlar arxasında qalmaq cəza deyil, şərəfdir", - o vurğulayıb.

Qeyd edək ki, Ermənistan İstintaq Komitəsinin İqtisadi Cinayətlər və Qaçaqmalçılıq üzrə Baş İdarəsi xüsusilə külli miqdarda dələduzluq, çirkli pulların yuyulması və xüsusilə külli miqdarda vergidən yayınma faktları ilə bağlı cinayət işini araşdırır. İstintaq Komitəsinin məlumatına görə, bu əməllər uydurma əsaslar yaratmaqla bir sıra şirkətlərin fəaliyyətini faktiki idarə edən şəxslər tərəfindən törədilib. İlkin istintaqın bir hissəsi olaraq 11 nəfər barəsində cinayət işi başlanıb. Onlardan 5-i barəsində həbs qətimkan tədbiri seçilib, 1 nəfərin tərk etməmə ilə bağlı yazılı öhdəliyi alınıb. 1 nəfərin həbsi ilə bağlı axtarış elan edilib, həmçinin 4 nəfər barəsində axtarış elan edilib. İstintaq qrupu istintaqı maraqlandıran 51 ünvanda eyni vaxtda axtarışlar aparıb.

### Geniş əməliyyat başlayır...

"168.am" saytının etibarlı məlumatına görə, Eçmiədzin kilsəsində də irimiqyaslı araşdırmalara başlanacaq. Bu araşdırmada iştirak etmək üçün prosesə 100-dən çox müstəntiq səfərbər edilib. Nəşrin məlumatına görə, toplanan 100-dən çox müstəntiq toplaşmanın məqsədi barədə dəqiq izahat verməyib, çox güman ki, informasiya sızmasından ehtiyatlanıblar. İrimiqyaslı aksiyaların katolikosun iqamətgahı ilə yanaşı, Erməni Apostol Kilsəsinin ayrı-ayrı yepiskoplarının iqamətgahlarında keçiriləsi gözlənilir. Nəşr onu da ehtimal edir ki, "Ermənistanın Elektrik Şəbəkələri" şirkətinin ofisində və Samvel Karapetyanın qardaşı oğlu Narek Karapetyanın evində aparılan axtarışlar diqqəti yayındırma xarakteri daşıya bilər.





Hakimiyyətlə kilsə arasındakı ziddiyyətlər isə artıq siyasi dairələr arasında da uçuruma dərinləşdirib. Belə ki, parlamentin "Ermənistan" fraksiyasının rəhbəri Seyran Ohanyan və fraksiyanın katibi Artsvik Minasyan deputat toxunulmazlığından məhrum ediliblər. Onlara qarşı cinayət işi başlanılıb. Dünən isə parlamentdə müxalifət bloku "Ermənistan"ın deputatı Artur Sarkisyanın çıxışından sonra gərginlik yaranıb və dava düşüb. Hakim "Vətəndaş sazişi" fraksiyasının deputatları və onların köməkçiləri Sarkisyana hücum etməyə çalışıblar. "Hayastan" blokundan deputat Kristine Vardanyanın sözlərinə görə, zalda vəziyyət nəzarətdən çıxıb, qarşıdurmaya hakim partiyanın köməkçiləri də qoşulub və Sarkisyana fiziki təzyiq göstərməyə cəhd ediblər.

### Parlamentdə növbəti dava...

Çıxışında Sarkisyan özünə qarşı irəli sürülən ittihamları "yalan" və "siyasi təqib" adlandırıb. O bildirib ki, Ermənistan hakimiyyəti demokratik prinsipləri pozaraq, günahsızlıq prezumpsiyasını belə tapdalayır və onu terrorizmdə ittiham edir: "Demokratik ölkələrdə baş prokuror parlamentə gəlir, amma qərarın verilməsinə təminat olmadığını başa düşür. Biz isə görünməmiş bir 'demokratiya qalasında', əslində isə diktatura qalasında yaşayırıq. Burada hər şey əvvəlcədən həll edilib, yazılıb, təsdiqlənib".

Çıxışından sonra deputat zalı tərk edə bilməyib - zalda başlayan dava və hakim fraksiya üzvlərinin hücumları buna imkan verməyib.

***P.İSMAYILOV***

# Növbəti görüş baş tutacaq?

## Vaşinqton - Tehran danışıqları bərpa olarsa...

Yaxın zamanda ABŞ ilə İran rəsmiləri arasında növbəti görüş planlaşdırılır. Belə ki, ABŞ Prezidenti Donald Trampın xüsusi nümayəndəsi Stiven Uitkoff Ağ Evdə İsrailin Baş naziri Benyamin Netanyahu ilə görüşündə bildirib ki, ABŞ-İran danışıqları böyük ehtimalla gələn həftə baş tutacaq. Tramp da öz növbəsində qeyd edib ki, Tehran Ağ Evdən ikitərəfli görüşlərin davam etdirilməsini xahiş edib. Amerika lideri əlavə edib ki, o, ABŞ-ın İranın nüvə proqramını məhv etdikdən sonra İslam Respublikası ilə danışıqların aparılmasını o qədər də əhəmiyyətli hesab etmir. "ABŞ - ın İranın nüvə obyektlərinə zərbələrindən sonra mən müzakirələrin nədən ibarət olduğunu soruşdum. Düşünürəm ki, onların bizə hörməti var. İsraillə də hörməti var. Onlar görüşmək istəyirlər, biz də görüşəcəyik", - deyə Ağ Evin rəhbəri vurğulayıb. ABŞ rəhbəri Vaşinqtonun İrana qarşı yeni hücum əməliyyatında maraqlı olmadığını da bildirib - "Vaşinqton çətin ki, yenidən İrana qarşı hərbi güc tətbiq etsin. Ümid edirəm, biz bunu etmək məcburiyyətində qalmayacağıq. Təsevvür edə bilmirəm ki, biz bunu etmək istəyəcəyik". Xatırladaq ki, iyunun 22-də ABŞ Hərbi Hava Qüvvələrinin B-2 bombardmançı təyyarələri İranın üç nüvə obyekti - Fordo, Natanz və İsfahan obyektlərinə raket hücumları həyata keçirib. İran KİV-lərinin məlumatına görə, hər üç nüvə obyekti tam məhv edilməsə də, hücum nəticəsində ciddi dağıntılarla üzləşib. İsrail Hərbi Hava Qüvvələri də 12 gün ərzində İranın hərbi strateji obyektləri ilə yanaşı, nüvə obyektlərinə də sarsıdıcı zərbələr endirib.



**İran XİN rəhbərinin bəyanatı**

İran İslam Respublikasının XİN rəhbəri Abbas Əraqçi bir müddət bundan əvvəl yerli mətbuata açıqlamasında bəyan edib ki, Tehran hələ ABŞ-la İranın nüvə məsələsinin nizamlanması üzrə danışıqların davam etdirilib-etdirilməyəcəyi barədə qərar verməyib - "Mən aydınlıq gətirmək istəyirəm ki, hələlik heç bir razılıq əldə olunmayıb və yeni danışıqlara başlamaqla bağlı qərar qəbul edilməyib". Əraqçi, həmçinin vurğulayıb ki, İran diplomatik danışıqlara hazırdır, lakin Tehran dialoq zamanı ABŞ-ın bir daha hərbi əməliyyatlarla təhdid etməyəcəyinə əmin olmalıdır.

İran Xarici İşlər Nazirliyi (XİN) ABŞ Prezidenti Donald Trampın Tehranın Vaşinqtonla danışıqlarda maraqlı olması barədə bəyanatlarını rədd edib.

İran XİN-in rəsmi nümayəndəsi İsmail Bəqai bildirib: "Bizim tərəfimizdən ABŞ tərəfinə görüş ilə bağlı heç bir sorğu göndərilməyib".

**Hər iki tərəf danışıqlarda maraqlıdır**

Məsələ ilə bağlı politoloq Əlimusa İbrahimov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, ABŞ ilə İran arasında növbəti görüşün baş tutması mümkündür. "ABŞ ilə İran arasında danışıqların yeni mərhələsinin başlanacağı haqqında Ağ Evdən gələn məlumatlar onu deməyə əsas verir ki, həm Vaşinqton, həm də Tehran aralarındakı problemləri ikitərəfli dialoq yolu ilə həll etməkdə maraqlıdır. Qeyd edim ki, ABŞ-ın İranın nüvə obyektlərinə hücum əməliyyatından sonra İran rəhbərliyi Vaşinqton ilə danışıqları dayandırdığını bəyan etmişdi. İsrailin İrana 12 günlük hücumu zamanı da tərəflər arasında danışıqlar aparılmırdı. Ancaq son hadisələrin ABŞ-İran danışıqlar prosesinin tamamilə donmasına gətirib çıxaracağını düşünmək sadəlövhlük olardı. İsrail-İran qarşıdurması sona çatdıqdan dərhal sonra, o cümlədən Vaşinqton İrandakı öz missiyasını bitirən kimi Ağ Evin rəhbəri Tehranla danışıqları bərpa etməkdə qərarlı olduğunu beynəlxalq ictimaiyyətin diqqətinə çatdırdı. Ağ Evdə hesab edirlər ki, Vaşinqton İranla növbəti danışıqlarda öz məqsədlərinə nail ola bilər. Çünki həm İsrailin, həm də ABŞ-ın hücumları zamanı İranın nüvə obyektləri sıradan çıxarılıb. O ki qaldı gələn həftə ABŞ ilə İran rəsmiləri arasında növbəti görüşün baş tutmasına, bu barədə indidən dəqiq proqnoz vermək mümkün deyil. Ona görə ki, İran rəhbərliyi tərəfindən ABŞ ilə növbəti görüşün keçiriləcəyi ilə bağlı rəsmi məlumat verilməyib. Qeyri-müəyyənlik olsa da, bu görüş baş tuta bilər. Hesab edirəm ki, ABŞ ilə İran arasında danışıqlar prosesi bərqərar olunacaq. İran Prezidenti Məsud Pezeşkian bu yaxınlarda jurnalistlərə son açıqlamasında bildirmişdi ki, İran ABŞ-la danışıqlardan imtina etmir və danışıqlar prosesinə sadiqdir", - deyən Ə.İbrahimov vurğulayıb ki, Tehran ABŞ-a etibar etmir: "İran narahatdır ki, tərəflər arasında dialoqun getdiyi bir zamanda İsrail, hətta ABŞ-ın özü tərəfindən İranın ərazisinə hücumlar təşkil olunsun".

**Vaşinqtonun məqsədi**

"Tramp administrasiyasının əsas məqsədi İranı öz nüvə proqramından imtina etməyə vadar etməkdir. İranın nüvə obyektlərinə ağır zərbələrdən sonra Vaşinqton bu prosesi danışıqlar yolu ilə bitirmək niyyətindədir. Ancaq xüsusi bir məqamı nəzərə almaq lazımdır ki, İranı güc və təzyiq yolu ilə öz nüvə proqramından imtina etdirmək qeyri-mümkündür. Tehran yalnız öz istəyi ilə öz proqramından imtina edə bilər. ABŞ İrana qarşı təzyiqləri və təhdidləri davam etdirsə də, Tehran öz yolundan dönməyəcək. Bu məsələ qarşılıqlı maraqlar çərçivəsində həll oluna bilər", - deyə Ə.İbrahimov bildirib.

***Yunis ABDULLAYEV***

# Fransaya daha bir zərbə...

## Belçikanın ardınca, Peru da bu ölkənin "Rafale" hərbi qırıcısını almaqdan imtina edib

Son illər Fransada bir çox sahələrdə geriləmə müşahidə olunur. İqtisadiyyatda, o cümlədən digər sahələrdə geriləmələr hökumətin səriştəsizliyi ilə izah olunur. Bu reallığı beynəlxalq iqtisadi və maliyyə təşkilatlarının hesabatları da təsdiqləyir. Məsələn, "Standard & Poor's" reytinq agentliyi ötənilki hesabatında Fransanın büdcə vəziyyətinin pisləşdiyini elan edib və onun kredit reytinqini aşağı salıb.

**Fransada tənəzzül bütün sahələri əhatə edir**

Fransa hakimiyyətinin özü də milli iqtisadiyyatda pisləşmə meyllərinin fərqindədir. Sadəcə, hökumət üçün bunun izahını vermək çətindir. Belə ki, Makron müxtəlif auditoriyalarda ölkəsinin Avropa İttifaqı (Aİ) məkanının ən güclü iqtisadiyyatlarından birinə malik olduğunu bildirir. O bu amildən istifadə etməklə Fransanın Aİ-nin əsas drayver qüvvəsi olduğunu əsaslandırmağa və əlavə imtiyazlar qazanmağa çalışır. Reallıq isə onun pafoslu iddialarının əksini deyir. Statistik göstəricilər isə Fransa iqtisadiyyatının artımını deyil, dayanıqlığının azalmasını təsdiqləyir. Buna görə də "Standard & Poor's" reytinq agentliyinin son hesabatından xeyli müddət əvvəl hökumətdəki mənbələr iqtisadi tənəzzül meyllərinin anonsunu edirdilər. Belə səbəbər bir növ nəbz yoxlamaq və müəyyən ictimai rəy formalaşdırmaq məqsədi daşıyırdı.

Bir çox sahələri əhatə edən tənəzzül fonunda Fransada neçə illərdir ki, davamlı olaraq etiraz aksiyaları, tətillər keçirilir. Hətta fermerlər də hökumətin apardığı siyasətə kəskin etirazlarını bildirirlər. Hökumətin göstərişləri əsasında reallaşdırılan "islahatlar" əslində fermerlər üçün ciddi maneələr yaradır və onların gəlir imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırır. Bir qədər bundan əvvəl fermerlərin əyalətlərdə yerli idarəetmə orqanlarının qarşısında təşkil etdikləri "peyin inqilabı" bütün dünyada Fransanın imicinə ciddi zərbə oldu.

**Hərbi sənaye də geriləyir**

Rəsmi Paris üçün daha bir zərbə ölkənin hərbi sənayesinin tənəzzülüdür. Belə ki, son vaxtlar Fransanın "Rafale" hərbi qırıcısı nüfuzunu itirməkdədir. Peru hökuməti də "Rafale"dan yan keçərək, İsveç istehsalçısı "Saab"ın "Gripen" döyüş təyyarələrinə üstünlük verib. Peru hökuməti İsveç istehsalçısı "Saab"dan 3,5 milyard dollara 24 "Gripen" təyyarəsi almağa hazırlaşır. Bu barədə "Peru21" xəbər saytı məlumat yayıb. Bu, Fransa "Rafale"ı üçün pis xəbər və böyük zərbədir.

Peru hökumətinin "Saab Gripen"lə bağlı seçimi xərc məsələsi ilə izah olunub. İsveç, həmçinin Peruya birbaşa və dolayı sərmayələr, eyni zamanda, texniki xidmət və hissələrin istehsalına dəstək daxil olmaqla, xüsusilə əhəmiyyətli texnologiya transferi proqramını vəd edib.

Belçika da ABŞ-ın F-35 qırıcılarına üstünlük verib. Belçika bir milyard avroya 11 ədəd yeni F-35 qırıcısı aldığını elan edib. Fransa Belçikaya öz "Rafale"ni satmağa çalışırdı. Lakin Belçika müdafiə nazirinin sözlərinə görə, F-35 "Rafale" da daxil olmaqla, digər rəqiblərini üstələyir. Bütün bunlar isə BMT Təhlükəsizlik Şurasının daimi üzvü, o cümlədən NATO təmsilçisi olan Fransanın imicinə böyük zərbədir.

**Fransa hökuməti sosial ödənişlərin indeksləşdirilməsindən imtina edir**

Fransada tənəzzül təkcə bu sahə ilə məhdudlaşmır. Belə ki, hökumət büdcəyə qənaət etmək üçün 2026-cı ildə pensiya və ailə müavinətləri də daxil olmaqla sosial ödənişlərin inflyasiyaya görə indeksləşdirilməsindən imtina etməyi planlaşdırır. Bu barədə "Franceinfo" radiostansiyası məlumat yayıb. Gələn həftə Fransanın Baş naziri Fransua Bayru ölkənin 2026-cı il büdcə layihəsini təqdim edəcək. Onun ÜDM-in 4,6 faizi səviyyəsində kəsiri qarşılamaq üçün büdcəyə əhəmiyyətli qənaət tədbirlərini əhatə edəcəyi gözlənilir.

Tədbir dövlət xərclərini azaltmaq üçün qiymətlərin artmasına baxmayaraq, sosial ödənişlərin 2025-ci il səviyyəsində saxlanılmasını nəzərdə tutur. Söhbət pensiyalar, ailə və minimum sosial müavinətlər, mənzil yardımı və digər ödənişlərdən gedir. Radiostansiya qeyd edir ki, hökumət ödənişlərin indeksləşdirilməsindən tam və ya qismən imtina edəcəyi barədə hələ ki qərar verməyib. Amma bu addım büdcəyə 5,7 milyard avroya qədər gəlir gətirə bilər.

Sosial Təminatın Maliyyələşdirilməsi üzrə Ali Şuranın məlumatına görə, mövcud dörd ƏDV dərəcəsinin (baza 20 faiz və azaldılmış 10 faiz, 5,5 faiz və 2,1 faiz) hər birinin 1 faiz artırılması büdcəyə ildə 13 milyard avro qazandıracaq.

Nazirlər Kabineti, həmçinin təqaüdçülər, aliment və əlillik müavinətləri alan vətəndaşlar üçün 10 faizlik vergi endiriminin ləğvi barədə qərar qəbul edə bilər ki, bu da Fransa Auditorlar Məhkəməsinin hesablamalarına görə, büdcəyə 5 milyard avro qazandıracaq. Bu "qazanc" isə sosial müdafiə tədbirlərinin dayandırılması hesabına baş verəcək.

***N.BAYRAMLI***



# Yelisey Sarayının kolonializm siyasətinin daha bir ünvanı - Madaqaskar

**Zaman ötdükcə dünya dəyişir, o cümlədən də beynəxalq münasibətlər sistemində yeni baxışlar və yanaşmalar formalaşır. Dərk olunur ki, keçmişin eybəcər qalıqlarına müasir dünyada yer ola bilməz. Fəqət özünü dünyaya demokratiyanın, insan haqlarının, bərabərliyin, qardaşlığın ünvanı kimi təqdim etməyə çalışan Fransa keçmişin eybəcər qalığı olan müstəmləkəçilik siyasətindən heç bir vəchlə əl çəkmək istəmir. Yelisey Sarayının Madaqaskara olan münasibəti bunu aydın şəkildə göstərir. Rəsmi Paris artan beynəlxalq qınaq qarşısında ənənəvi müstəmləkəçiliyin formasını dəyişərək onu yeni kolonializm metodları ilə əvəzləsə də, mahiyyət eyni olaraq qalır. Yenə də Afrikanın, dənizaşırı ərazilərin bir sıra ölkələri Fransa tərəfindən ciddi nəzarətdə saxlanılır və onların vətəndaşları istismar olunur, təbii sərvətləri talanır. Məhz talama, sümürmə siyasətinin nəticəsidir ki, bu gün Fransada yüksək həyat səviyyəsini təmin etmək mümkün olur.**

## Fransanın 500 illik tarixə malik müstəmləkəçilik siyasəti

Fransanın müstəmləkəçilik siyasətinin təxminən 500 illik tarixi var. Bu ölkə istilalar sayəsində Afrikanın qərbində və şimalında 20-dən çox ölkəni öz təsir dairəsinə qatmağa nail olub. Afrikanın ərazilərinin təxminən 35 faizi 300 il ərzində tamamilə Fransanın nəzarətində qalıb. Təbii ki, zaman ötdükcə Fransa müstəmləkəçilik siyasətində müəyyən forma dəyişiklikləri etmək məcburiyyətində qalıb. Ancaq zaman və forma dəyişsə də, ənənəvi müstəmləkəçilik neokolonializmlə əvəzlənsə də, üzqarası siyasətin mahiyyəti dəyişməyib. Fransa Seneqal, Niger, Kamerun və Mavritaniya kimi bir çox Afrika ölkələrində, xüsusilə də Əlcəzair və Ruandada daxili qarşıdurma və soyqırımı həmin ərazilərdə hərbi və bəşəriyyət əleyhinə çoxsaylı cinayətlər törədib, fransız silahlı qüvvələri etnik və dini mənsubiyyətinə görə yüz minlərlə dinc sakini soyqırımına məruz qoyub. Bütövlükdə Fransanın yüz illər boyunca mövcudluğu müstəmləkəçilik siyasətinin ünvanına çevrilən ölkələrə yaxşı heç nə gətirməyib. Onlar sivilizasiyadan geri qalıblar, sərvətləri talanıb Fransaya daşınan ölkələr asılı vəziyyətə düşüblər, yerli xalqlar milli kimliklərini itirmək təhlükəsi ilə üzləşiblər...

Fransanın ağır müstəmləkəçilik siyasətindən bəhs edərkən bir mühüm məqama xüsusi diqqət yetirmək yerinə düşər. Maraqlıdır ki, Fransanın ərazisi 551.500 kvadrat-



kilometr olsa da, Beşinci Respublikanın ərazisi bundan xeyli böyük, yəni 1 milyon 111 min 155 kv.km-dir. Bu, o anlama gəlir ki, 559 min 655 kv.km-lik ərazi müstəmləkə altında inildəyən ölkələr, adalardır. Yelisey Sarayı bu gün də həmin ərazilərə müstəqillik verməkdən boyun qaçırır.

Ümumiyyətlə, bəşəriyyətin kolonializm tarixinin qanlı cinayətlərinin çoxu məhz Fransa tərəfindən törədilib. Afrika, Cənub-Şərqi Asiya, Sakit Okean, Latın Amerikasında onlarla ölkəni işğal altına alan, sərvətlərini talan edən, xalqlarını uzun illər əsarətdə saxlayan Fransa üçün məsuliyyət daşıyır.

## Madaqaskara qarşı məkrli planlar - Epars adalarının ələ keçirilməsi

Madaqaskar Hind okeanın qərbində və Afrikanın cənub-şərqində Madaqaskar və digər adaların üzərində yerləşən dövlətdir. Yelisey Sarayı nəzarətində saxladığı digər ərazilər kimi, bu ölkəyə qarşı da məkrli planlar quraraq həyata keçirib. 1960-cı ildə Madaqaskar müstəqillik əldə etdiyi zaman Fransa karbohidrogenlərlə zəngin arxipelaqı özünün xarici ərazilərinə çevirməyi təmin edib. BMT buna qarşı çıxsa da, rəsmi Paris hələ də mövqeyindən dönmür. O cümlədən Epars adaları 1960-cı ildə Madaqaskarın müstəqilliyi ərəfəsində Fransa tərəfindən ələ keçirilib. Adalar uzun illərdir ki, Antananarivo ilə Paris arasında mübahisəli əraziyə çevrilib. Rəsmi Paris Epars adalarını müntəmadi qaydada "izləmək" üçün xüsusi batalyon yaradıb.

Sözügedən adalar Hind okeanında zəngin flora və faunası ilə əsl cənnət sayılır. Ancaq Fransa üçün müstəsna önəm daşıyan məqamlar adaların strateji mövqeyi və buradakı zəngin karbohidrogen ehtiyatlarıdır.

Eyni zamanda, Madaqaskar da bu əraziləri özününkü hesab edir. Madaqaskar Respublikasının Prezidenti Andri Rajoelina hətta Epars adalarına münasibətdə "milli kimlik" ifadəsini işlədib. İnzibati nöqteyi-nəzərdən Epars adaları 1896-cı ildə Fransanın müstəmləkəsinə çevrilən zaman Böyük Adaya aid edilib. Ancaq Madaqaskar müstəqilliyini bəyan etdikdə Yelisey Sarayı manipulyasiyaya əl ataraq xüsusi fərmanla adaları Fransanın yurisdiksiyasına verib. Bu, birtərəfli qaydada atılan addım idi. Hətta general De Qoll o dövrdə bəyan etmişdi ki, bu adalarda nüvə sınaqları da həyata keçirilə bilər. Təkcə bu fakt Fransanın insan həyatına, təbiətə, müstəmləkə ərazilərinə hansı prizmadan yanaşdığını əyani şəkildə təsdiqləyir.

## BMT səviyyəsində iki qətnamə qəbul edilsə də...

Adalara sahiblənmək uğrunda Fransa ilə Madaqaskar arasında uzun illər davam edən mübahisələr BMT səviyyəsinədək yüksəlib. 1976-cı ildə məsələyə cəlb edilən BMT Antananarivonun tərəfini tutaraq iki qətnamə (1979 və 1980) çıxarıb. Həmin sənədlərdə Fransa hökumətindən "qeyri-qanuni özgəninkiləşdirilən adaların" Madaqaskara qaytarılması ilə bağlı təxirə salınmadan danışıqlara başlaması tələb edilib.

Həmçinin Afrika İttifaqı və digər ölkələr də Fransanın sözügedən adalara sahiblənməsinin hüquqi və tarixi əsasları olmadığını bildirərək Yelisey Sarayının ünvanına sərt tənqidlər səsləndiriblər. Buna baxmayaraq, 45 il ərzində heç nə dəyişməyib. Hətta bu məsələ 2019-cu ilin may ayında Parisdə iki ölkə prezidentləri arasında da müzakirə edilib. 26 iyun 2020-ci il tarixinədək sazişin hazırlanması üçün ikitərəfli komissiya yaradılıb. Lakin Madaqaskar Epars adalarını geri almadan müstəqilliyinin 60 illiyini qeyd etmək məcburiyyətində qalıb. Regiona səfər edən Fransa prezidenti isə bildirib ki, ərazi fransız torpağıdır. 2020-ci ildə Fransa səfiri Madaqaskar XİN-ə çağırılıb və ölkənin Parisin Epars adalarında milli qoruq yaratmaq planları ilə razılaşmadığı diqqətə çatdırılıb. Qoruğun yaradılması haqqında fərman iki ölkə arasında danışıqların nəticəsiz başa çatması anlamına gəlir. Adaların Madaqaskarın yurisdiksiyasına qaytarılması məsələsi 2021-ci ilin 23 sentyabrında prezident Andri Rajoelina tərəfindən BMT-dəki çıxışı zamanı növbəti dəfə qaldırılıb. O, eyni zamanda, 1979-1980-ci illərə dair BMT qətnamələrinə istinad etsə də, Qərbin ikiüzlü siyasəti burada da özünü göstərib. Azərbaycan təcrübəsindən də bəlli olduğu kimi, bir sıra hallarda BMT qətnamələri adi kağız parçasından fərqlənmir...

## İkinci görüş və yaxud Madaqaskar israrlıdır

Nəhayət, uzun illər sonra - 2025-ci ilin 30 iyun tarixində Makronla Madaqaskar Prezidenti arasında Epars adalarının statusuna dair 2-ci görüş baş tutub. Müzakirələr zamanı yekun nəticə əldə edilməsə də, Madaqaskar tərəfi öz mövqeyini israrla açıq şəkildə ifadə edərək konkret tələblərini irəli sürüb. Bunlar aşağıdakılardır:

- Madaqaskarın bu adalar üzərində suverenliyinin tanınmadığı dövrdə üzləşdiyi itkilərə görə kompensasiyanın ödənilməsi;
- Madaqaskar balıqçılarının Epars adalarının ətraf sularında sərbəst fəaliyyət göstərməsinə icazə verilməsi;
- Madaqaskarlı alimlərin regionda aparılan elmi-tədqiqatlarda iştirakının təmin edilməsi və keçmiş tədqiqatlara çıxış imkanlarının yaradılması.

Fransa ikinci görüşün müddəalarına əməl edəcəkmi? Və yaxud başqa bir sual: Rəsmi Paris Epars adaları üzərində nəzarətini Madaqaskara güzəştə gətirməmək üçün daha hansı hiylələrə əl atacaq?

*Mübariz ABDULLAYEV*

# İrəvanda azərbaycanlı jurnalist xanımların maarifçilik missiyası

əvvəli ötən sayımızda

"Zəngi" qəzetində qadınların ictimai-siyasi fəaliyyətini əks etdirən yazılara geniş yer verilirdi. Qəzetin səhifələrində "Azad qadın", "Talibə", "Azad uşaq", "Şərqli qız", "Qadın" kimi imzalarla çap olunan məqalələr, qadınların maariflənməsi, azad fikirli yetişməsi və cəmiyyətdə fəal mövqe tutması üçün yazılırdı. Həmin dövrdə Sovet hakimiyyəti yeni qurulmuşdu və bu səbəbdən Qərbi Azərbaycanda qadınların ictimai həyatda iştirakı xüsusi əhəmiyyət kəsb edirdi. Qadınların qəzetdə fəallığı, onların maarifçilik mübarizəsinin bir hissəsinə çevrilməsinə imkan yaradırdı. Təəssüf ki, bu qadınların çoxunun həyat və fəaliyyətləri barədə məlumatlar yalnız dövrün mətbuat materialları və xatirə yazıları vasitəsilə əldə olunur.

"Zəngi" qəzetinin ilk xanım jurnalisti Qərbi Azərbaycanın tanınmış maarif xadimi Mehdi Kazımovun həyat yoldaşı Bülbül Kazımova (Muradova) olub. Bülbül Hacı Məmmədtağı (1887-1976) - İrəvanda ilk azərbaycanlı qadın müəllimlərdən biri, İrəvanda anadan olub, 1914-cü ildə İrəvan Rus-Müsəlman Qızlar Məktəbini bitirib. Bülbül xanım bir sinif qızlar məktəbində müəllim işləmiş, İrəvanda Oğlanlar Məktəbi açmışdır. 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdiyi vəhşiliklər zamanı onun təzəcə yandırdığı sönmüşdür. 1918-ci ildə erməni daşnaklarının qanlı repressiyaları nəticəsində Bülbül Kazımova İrəvandan qovularaq Gəncə şəhərinə köçür.

Sonra tale onu Gədəbəyə çəkib aparıb və o, orada ilk qız məktəbini təşkil edib. 1921-ci ildə Şəmkirdə, Dəllərdə müəllimlik edib. O, Azərbaycanın müxtəlif şəhərlərində, o cümlədən Naxçıvanda və Qərbi Azərbaycanda neçə-neçə məktəbin, klub və mədəniyyət evinin əsasını qoyub. 1923-cü ildə İrəvana qayıdan Bülbül Kazımova gərgin ictimai və pedaqoji fəaliyyətini davam etdirərək daha da genişləndirib. Görkəmli maarif işçisi, ictimai xadim Bülbül Kazımova bir çox orden və medallarla təltif edilib. O, 20 ilə yaxın İrəvan Azərbaycanlı Qadınlar Klubuna rəhbərlik edib, Qərbi Azərbaycanın ilk maarifpərvər qadınlarından biri olub. Bakıda nəşr edilən "Şərq qadını" jurnalında və digər mətbuat orqanlarında yazıları dərc edilirdi.

"Zəngi" qəzetinin digər bir xanım jurnalisti İrəvanın maarifpərvər qadınlarından biri, İrəvan Dövlət Azərbaycan Dram Teatrının ilk qadın aktisası, görkəmli dövlət xadimi Bala Əfəndiyevin həyat yoldaşı Fatma Əfəndiyeva olub. 1906-cı ildə Gəncə quberniyasının Qazax qəzasının Çəmbərək (indiki Krasnoselo) rayonunun Çaykənd kəndində anadan olmuş Fatma xanım da ilk təhsilini Çaykənddə almışdır. Bala Əfəndiyevin əmisi qızı və eyni zamanda, həyat yoldaşı olmuşdur. Qeyd edilənə görə, Sovet Ermənistanında Türk Qadınlar Klubunun təşkilatçısı və ilk müdiri olan F.Əfəndiyeva orada mədəni-maarif sahəsində xeyli işlər görüb. "Zəngi" qəzetinin ilk qadın müxbirlərindən biri olub. Əlbəttə, Türk Qadınlar Klubunun təşkilatçısı və ilk rəhbəri kimi, o bura qadınları cəlb edib, onların savadlanması uğrunda maarifçilik işi, təbliğat aparmışdır. Fatma Əfəndiyeva Ermənistanda 20-ci əsrin iyirminci illərində latın əlifbasına keçidin də öncülərindən biri olmuş və həyat yoldaşı Bala Əfəndiyevlə birlikdə İrəvanının mədəni və maarif həyatında aktiv rol almışdır. 1929-cu ilədək Ermənistan SSR ictimai təminat komissarı(1935-1937) işləmiş Bala Əfəndiyevin 1938-ci ildə represiyaya məruz qalaraq güllələnməsindən sonra Fatma xanım Əfəndiyeva da 8 il müddətinə azadlıqdan məhrum edilmişdir. Hər ikisi təxminən 20 il sonra tam bəraət qazanmışlar. Fatma xanım Əfəndiyeva İrəvan Dövlət Azərbaycan Dram Teatrının fəal üzvü olmağın yanı sıra məsul vəzifələrdə çalışan yoldaşı Bala Əfəndiyevin rəhbərliyi ilə İrəvanda yeni əlifba ilə ana dilində nəşr olunan "Zəngi" və "Rəncbər" qəzetlərində də müxbir kimi fəaliyyət göstərmişdir.

Bəyim Kazımova İrəvan şəhərində anadan olub, 1926-cı ildə İrəvan Azərbaycanlı Qadınlar Klubunun nəzdində açılmış savad kurslarında dərs deyib. O, Qərbi Azərbaycanda azərbaycanlı qadınlar arasında savadsızlığın aradan qaldırılmasında fəal iştirak edib, İrəvanda çadrasını atan ilk qadınlardan olub.

İrbaba Bağırova 1901-ci ildə İrəvanda anadan olub. 1916-cı ildə İrəvanda İkinci Şəhər Qızlar Gimnaziyasında oxuyub. 1926-cı ilin oktyabrında Bakıda keçirilən Zaqafqaziya Qadınlar Klubu işçilərinin 2-ci konfransında İrəvan azərbaycanlı qadınlarını təmsil edərək İrəvan Azərbaycanlı Qadınlar Klubunun fəaliyyəti və qarşısında duran vəzifələrin həyata keçirilməsi haqqında məruzə ilə çıxış edib. İrbaba xanım həm də Azərbaycanda çıxan "Şərq qadını" jurnalının irəvan üzrə təmsilçisi olmuşdur.

"Zəngi" qəzetinin müxbirlərindən biri də Qeyis Münşiyeva idi. Ümumiyyətlə, Münşiyevlər İrəvanda Azərbaycan ədəbi-mədəni və ictimai-siyasi mühitinin formalaşmasında və dizaynında xidmətləri olan ziyalı nəsilləri arasında öz yeri və rolu olmuşdur. Qeyis Münşiyeva Qərbi Azərbaycanın tanınmış ictimai xadimi, 1937-ci il repressiyalarının qurbanı Hüseyn Münşiyevin bacısı olub, İrəvanda fəaliyyət göstərən Azərbaycan dram dərnəyinin işində fəal iştirak edən ilk qadınlardan olub. O, gənc yaşlarında - 1929-cu ildə, 27 yaşında İrəvan şəhərində vəfat edib.

Qərbi Azərbaycanda azərbaycanlı qadınların savadsızlığına qarşı mübarizə hərəkatında fəal iştirak edən qadınlardan biri də Nabat İbrahimova olub. Onun "Zəngi" qəzetində tez-tez "İbrahimova" təxəllüsü ilə məqalələri dərc olunurdu. O, İrəvan Azərbaycanlı Qadınlar Klubunun nəzdində fəaliyyət göstərən "Qadın müxbirlər" dərnəyinə rəhbərlik edib.

Ənvər Rizayeva İrəvanda İkinci Rus-Tatar Qızlar Məktəbində təhsil alıb. İrəvandakı Azərbaycan Dram və Qadın Klubunun nəzdində qadın müxbirlər birliyinin fəal üzvü olub.

Onlardan başqa, Şaman Süleymanova, Siddiqə Babayeva, Mənzərə Axundova da Qərbi Azərbaycanın ədəbi-mədəni, ictimai həyatında fəal işitirak edən qabaqcıl qadınlar olublar.

Yuxarıda adları çəkilən bu ziyalı qadınların Azərbaycan qadınlarının elmə, təhsilə cəlb olunmasında, Qərbi Azərbaycanda milli maarifimizin və mədəniyyətimizin inkişafında böyük rolu olmuşdur. Bütün bu ziyalı qadınların digər diqqətçəkən fəaliyyəti "Zəngi" qəzeti ilə əməkdaşlığı və həmin nəşrdə günün aktual problemlərinə həsr olunmuş məqalələr dərc etdirmələri olmuşdur.

"Zəngi" qəzeti təkcə bir mətbuat orqanı deyil, həm də qadın maarifçiliyinin simvoluna çevrilmişdir. Qəzetdə qadın jurnalistlərin fəallığı göstərir ki, Qərbi Azərbaycanda qadınlar ictimai və mədəni həyatda önəmli mövqeyə sahib olmuşlar. Onların maarifçilik fəaliyyəti, milli dəyərlərin qorunması, təhsil və hüquq məsələlərinə verdikləri töhfələr müasir dövr üçün də əhəmiyyətlidir.



*Cəlal Allahverdiyev, filologiya üzrə fəlsəfə doktoru, dosent*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Bakmətbuat" MMC - 0124314313
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**






# Söz sərrafı...

## Aşıq Ələsgər saz, söz sənətimizin böyük ustadıdır!

Aşıq sənətimizin ən uca zirvəsində dayanan Aşıq Ələsgər 1821-ci ilin bu günü anadan olub. Xalq ruhuyla həmahəng əsərləri ilə Azərbaycanın mədəni sərvətlər xəzinəsinə misilsiz töhfələr bəxş etmiş sənətkarın yaradıcılığı ədəbiyyatımızın parlaq səhifələrindəndir. Onun yaradıcılığı Azərbaycan poetik fikrinin inkişafında elə bir səhifədir ki, doğurdan da insanın ürəyində çox nəcib duyğular oyadır, insana böyük zövq verir.

Müxtəlif mövzularda yazıb-yaradan söz sərrafı xüsusi təhsil ala bilməyib, sənətin sirlərini el sənətkarlarının və ağsaqqalların yanında öyrənib. Böyük ustad Aşıq Alının yanında şagirdlik edən Ələsgər aşıqlıq sənətinin sirləri ilə bərabər, ondan ədəb və mərifət qaydalarını da mənimsəyib. Toy məclislərinin birində Ələsgərlə deyişib və ona məğlub olaraq sazını qalib tərəfə - Ələsgərə təslim edib. Ələsgər isə böyük təvazökarlıq hissi ilə ustadının qarşısında baş əyib, ona öz ehtiramını bu sözlərlə bildirib:

***Bir şəyird ki, ustadına***
***kəm baxa,***
***Onun gözlərinə qan***
***damar, damar.***

Aşıq Ələsgər Azərbaycan dilinin incəliklərindən bacarıqla istifadə edərək aşıq poeziyamızı daha da zənginləşdirib Məhz buna görə də ondan sonra gələn bütün aşıqlar, hətta yazılı ədəbiyyatımızın görkəmli nümayəndələri bu qüdrətli söz ustadının yaradıcılığından bəhrələniblər. Aşıq Ələsgər şeirlərinin məna dərinliyi, sözlərin axıcılığı, təsvir vasitələri, cinas qafiyələrin dolğunluğu, sözlərin yerində tutarlı və böyük ustalıqla işlədilməsi bütün aşıq poeziyamızda əlçatmaz zirvəyə qalxıb.

Böyük ustadın yaradıcılığında qoşma janrı üstünlük təşkil edir. Bu qoşmaların bir qismində insanları ucaldan, yaşamağa həvəs oyadan, təmiz və mənalı məhəbbətin tərənnümü xüsusi yer tutur. Gözəllərin vəsfi şairin bir sıra qoşmalarında qırmızı xətt təşkil edir. Bu cəhətdən aşağıdakı bənd daha səciyyədir:

***Ələsgəri gözdən salma***
***irağa,***
***Könül dərd gətirməz***
***dərdi-fərağa***
***Leyli kimi vədə versən***
***bulağa***
***Məcnun tək gözlərəm il,***
***sənə qurban.***

Göyçədə dünyaya göz açsa da, saz sehri, söz tilsimiylə bütün Qafqazı, Türkiyə və İranı heyrətdə qoymağı bacarmışdı. 1918-1919-cu illərdə daşnakların türklərə qarşı törətdiyi qırğın nəticəsində Göyçə mahalının var-yoxu talandı, əhali öz dədə-baba yurdunu tərk edib başqa yerlərə köçməyə məcbur oldu. Hər yerdə aşığı hörmətlə qarşılasalar da, onun ürəyi-gözü Göyçədə idi. O gözünü açıb gördüyü doğma yerlər üçün çox darıxırdı. Sanki canından əziz bildiyi Göyçə dağlarının nə vaxtsa əldən çıxıb yad yağılara qismət olacağından duyuq düşübmüş. Ustad sənətkar Göyçə yaylaqlarının eldən ayrı düşəcəyinin xiffətini, ağrısını uzaqgörənliklə əsərlərində söyləmişdi. Nəhayət, 1921-ci ildə o, Ağkilsəyə qayıdır, ömrünün son illərini doğma kəndində yaşayır. Ancaq onun çal-çağırlı günləri arxada qalmışdı. Ömrünü toylarda, şadlıqlarda keçirən aşıq evdə oturmaqdan darıxır, qocalıqdan, xəstəlikdən şikayətlənirdi. O, tez-tez keçmiş günləri xatırlayır, dünya, həyat barədə düşünüb kədərlənirdi:

***Səksəni, doxsanı keçibdir yaşım,***
***Əzrayıl həmdəmim,***
***məzar yoldaşım.***
***Gor deyə tərpənir bəlalı***
***başım,***
***Daha köç təbilin çal,***
***qoca baxtım.***

1972-ci ildə Aşıq Ələsgərin anadan olmasının 150 illiyi, 1998-ci ildə 175 illiyi, 2021-ci ildə isə 200 illik yubileyi Azərbaycanın hər yerində böyük təntənə ilə qeyd olunub. Söz ustadının xatirəsi dövlətimiz tərəfindən əbədiləşdirilib. Onun adına küçə, mədəniyyət sarayı, Respublika Xalq Yaradıcılığı evi fəaliyyət göstərir.

2011-ci ilin Azərbaycan Mədəniyyət və Turizm Nazirliyi və Azərbaycan Aşıqlar Birliyi tərəfindən "Aşıq Ələsgər İli" elan edilməsi ilə əlaqədar M.F.Axundov adına Milli Kitabxana tərəfindən "Aşıq Ələsgər -190" biblioqrafik göstərici tərtib edilib.

*Yeganə BAYRAMOVA*

# 190 il öncə Şamaxıdan doğan Günəş!




# Şair, maarifçi, publisist...

## Seyid Əzim Şirvani ədəbiyyatımızın parlaq nümunəsidir

Onun yaradıcılığı 19-cu əsr Azərbaycan ədəbiyyatı tarixində mühüm yer tutur. Məhəbbəti tərənnüm edən Füzuliyanə qəzəlləri ilə istedadlı lirik şair, maarifçi şeirləri, təmsil, mənzum hekayə və satiraları ilə görkəmli realist sənətkar kimi ədəbiyyatımızda dərin iz buraxmış Seyid Əzim Şirvaninin anadan olmasından 190 il ötür. Şirvaninin realist şeir yaradıcılığında "Əkinçi" qəzetinin mühüm rolu olub. Yazdığı şeirlərinin böyük əksəriyyətində xalqı qəflət və cəhalət yuxusundan oyatmağa çağırırdı.

**Aşiqanə qəzəlləri daha çoxdur...**

Şairin qəzəlləri ayrı bir aləmdir. Əsərləri içərisində müxtəlif Şərq mənbələrindən etdiyi tərcümələr, Sədi, Hafiz və Məhəmməd Füzuli şeirlərinə yazdığı nəzirələr də var. Lakin bunlar şairin zəngin bədii irsi içərisində az yer tutur. Seyid Əzim Şirvani yaradıcılığının çox hissəsi lirik janrda yazılmış original əsərlərdən ibarətdir ki, bunların da çoxu qəzəllərdir. Şairin qəzəllərində həyat sevgisi, nikbin əhval-ruhiyyə, dini etiqad xüsusi yer tutur. Onun aşiqanə qəzəlləri daha çoxdur. Müəllifin şeirə hərarət və can verən dərin lirikasını məhz bu qəzəllərdə görmək olur.

Seyid Əzim Şirvani yaradıcılığının ikinci mərhələsi onun maarifçi və tənqidi-satirik şeirlərilə başlayır ki, artıq bu zamandan etibarən onun yaradıcılığında realizm üstünlük təşkil edir.

Şairin fikrincə, var-dövlət bir gün əldən çıxa bilər, lakin sənət heç vaxt itməz. İnsan əlindəki sərmayənin, yəni sənətin köməyi ilə yenə də var-dövlət sahibi olar.

***Puç olub getsə dövlətin zayə,***
***Genə sənətdir əldə sərmayə.***
***Elmdir əhli-sənətin hünəri,***
***Elmsiz sənətin nədir səməri?***

**18 illik əziyyətin sonu...**

19-cu əsrin sonlarına doğru Seyid Əzim Şamaxıda yeni üsulla "Məclis" adlı bir məktəb açır. Seyid Əzimin bu məktəbində köhnə mollaxanalardan fərqli olaraq, şagirdlərə Azərbaycan, rus, fars dilləri öyrədilir və müasir elmlərdən ibtidai məlumat verilirdi. Seyid Əzim bütün maddi və mənəvi çətinliklərə baxmayaraq, 18 ildən artıq öz məktəbində müəllimlik edib. Nəhayət, bir tərəfdən mövhumatçıların və ruhanilərin müxtəlif bəhanələrlə ona qarşı hücuma keçmələri, digər tərəfdən də o zaman Şamaxıda dövlət tərəfindən açılan şəhər məktəbinin təsiri nəticəsində həmin məktəb fəaliyyətini dayandırmağa məcbur olur.

**Onu sevməyənlərin sayı hər gün artırdı**

1879-cu ildə Seyid Əzimin "ipə-sapa yatmazlığından" cana doymuş hökumət nümayəndələri ilə ruhanilərin işbirliyi sayəsində müəllimlikdən kənarlaşdırılır. Lakin bəzi maarifpərvər insanların səyləri sayəsində Seyid Əzimi müəllimliyə qaytarmaq mümkün olur. Seyid Əzim maarifçi və tənqidi-satirik şeirlərilə mövhumatı, nadanlığı qamçılayır, bu səbəbdən də mövhumatçı dindarların kəskin müqaviməti ilə üzləşirdi, "Əkinçi"də yazmağa başladıqdan sonra isə nadan dairələrdə onu sevməyənlərin, ona düşməncəsinə münasibət bəsləyənlərin sayı daha da artdı.

**Ölümü barədə müxtəlif iddialar...**

Seyid Əzimin ölümü haqqında yazarkən bir qayda olaraq, "1888-ci il mayın 20-də Şamaxıda vəfat edib" cümləsi ilə kifayətlənirlər. Halbuki onun 53 yaşında qəfil ölümü ilə bağlı iddialardan biri sui-qəsd nəticəsində dünyasını dəyişməsi ilə bağlıdır.

Böyük maarifçinin məscid qapısında yaradılan süni basabasda öldüyü də deyilir. Bir variantda isə onun mövhumatçı insanlar tərəfindən qətlə yetirildiyi söylənir. Ancaq birinci ehtimal daha geniş yayılıb.

*Yeganə BAYRAMOVA*

# Azercell telekommunikasiya və texnologiya şirkətlərinin qlobal alyansına qoşuldu

"Azercell Telekom" MMC telekommunikasiya və texnologiya sahəsində fəaliyyət göstərən nüfuzlu şirkətlərin beynəlxalq alyansı olan TeleManagement Foruma (TM Forum) rəsmi üzv olub. Rəqəmsal transformasiyanı təşviq edən bu təşkilatın üzvləri sırasında Vodafone, Orange, Deutsche Telekom kimi qlobal operatorlarla yanaşı, Amazon, Microsoft və Nokia kimi texnologiya nəhəngləri də yer alır.

Dünyanın aparıcı şirkətlərini bir araya gətirən bu platformaya qoşulmaqla Azercell xidmətlərin inkişafı, müştəri təcrübəsinin optimallaşdırılması və tərəfdaşlıq ekosisteminin genişləndirilməsini dəstəkləyən geniş imkanlara çıxış əldə edir.

"TM Foruma üzvlüyümüz ən yaxşı təcrübələrin tətbiqinə və daimi inkişafa dair formalaşdırdığımız vizyonun daha bir mərhələsidir," - deyə Azercell-in Məlumat Analitikası və Süni İntellekt departamentinin direktoru Sabir Mərdanov bildirib. "Aparıcı rəqəmsal xidmət təminatçıları ilə əməkdaşlıq çərçivəsində rəqəmsal infrastrukturumuzu beynəlxalq standartlara uyğunlaşdırmaqla, biz innovativ texnologiyaların tətbiqini daha da sürətləndirəcək, Azercellin həyata keçirdiyi transformasiyanın effektivliyini daha da artıracağıq. Bu da nəticə etibarilə xidmət keyfiyyətinin yüksəlməsinə səbəb olacaq".

Azercell innovativ həllər və gələcəyə yönümlü xidmətlərin aparıcı təminatçısı olaraq öz mövqeyini daha da gücləndirməyi hədəfləyir. Bu strategiya çərçivəsində rəqəmsal xidmətlərin inkişafı, süni intellektə əsaslanan həllərin inteqrasiyası və texnoloji infrastrukturun təkmilləşdirilməsi xüsusi yer tutur. TM Forum kimi qlobal təşkilatlarla əməkdaşlıq bu məqsədlərə xidmət edən mühüm addımlardan biridir.





Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 3861**
**Sifariş: 1433**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova